www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1-3 sentyabr 2018-ci il Şənbə № 184 (7073) Qiymәti 60 qәpik

**Xəbər**

## Ölkəyə poçtla narkotik gətirdən musiqiçini DTX həbs etdi

yazısı səh.2-də

**Gündəm**

### Bakını bürüyən toz qatı ilə bağlı xəbərdarlıq



Səhiyyə Nazirliyinin rəsmisi maska taxmağı məsləhət görür; **pediatr:** "Havadakı toz nəinki allergik, sağlam uşaqlara da zərərlidir"

yazısı səh.12-də

### "Qasid"in anbarını hərracda 1 milyon manata satdılar, redaksiyalara borcu isə ödənmədi

yazısı səh.3-də

### Fəzail Ağamalıdan beynəlxalq təşkilatlarla bağlı sərt çağırış

yazısı səh.6-da

### "Gürcüstanın baş nazirinin Azərbaycana səfərinin iki məqsədi var idi" - politoloq

yazısı səh.4-də

### ABŞ-ın riskli dünya siyasəti - bütün cəbhələrdə savaş açıb...

yazısı səh.8-də

### Dünya məşhurlarının vəsiyyətləri, mirasları və son sözləri...

yazısı səh.13-də

### Bakı-Yessentuki-Kislovodsk avtobus reysi açılır

yazısı səh.10-da

### ATƏT sədrinin "irəliləyiş" anonsu

yazısı səh.11-də

### 40 minə yaxın azərbaycanlı xaricdə təhsil alır

yazısı səh.10-da

### Məşhur varlıların boşanma skandalları

yazısı səh.10-da

### II Dünya müharibəsində itkin düşmüş babalarımızı tapa bilərik

yazısı səh.14-də

# BAKI VƏ GƏNCƏDƏ SÖKÜNTÜ, TORPAQ SKANDALLARI - SABİQ BAŞÇILARIN BAŞLARI DƏRDDƏ

Paytaxtda Hacıbala Abutalıbovun verdiyi sərəncamla tikilən obyektlər qanunsuz adlanırılaraq, kütləvi şəkildə sökülür; Elmar Vəliyevin əsas adamlarından olan Məharət Mustafayev isə vəzifədən çıxarılıb; onun fəaliyyətinin yoxlandığı deyilir




yazısı səh.5-də

# Putin İrəvandakı adamını göstərdi - Köçəryana zəngin pərdəarxası

Ermənistanda Rusiya-ABŞ qarşıdurması başlayır; Paşinyan Kremlin adamlarından əl çəkmir

yazısı səh.9-da



### Eldar Əzizov eyvanlardan paltar asmağı qadağan etdi

yazısı səh.3-də



### "İlqar Məmmədov müxalifət lideri olacaq" iddiasına reaksiyalar

yazısı səh.6-da



*Hikmət Hacıyev:*

### "Mənim fəaliyyətimi də tənqid edirlər, bu, normaldır"

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 184 (7073) 1 sentyabr 2018

## Bakıda orta məktəb ləğv edilir, kollektiv ayrı məktəbə köçürülür

**Təhsil naziri Ceyhun Bayramovun əmri ilə Bakının 126 saylı məktəbi ləğv edilir. Təhsil Nazirliyindən musavat.com-a verilən məlumata görə, bu məsələ ilə bağlı avqustun 29-da məktəbin kollektivi ilə görüş keçirilib. Görüşdə müəllimlərin sualları cavablandırılıb.**

Bildirilib ki, Təhsil Nazirliyinin tabeliyindəki "Vətən" İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Futbol Məktəbi ilə Bakı şəhəri 126 nömrəli tam orta məktəbin bazasında "Vətən" İdman liseyinin yaradılması tədrisə və müəllim kollektivinin fəaliyyətinə müsbət təsir göstərəcək. Müəllimlərin dərs yükündə azalma hallarına yol verilməyəcək. Məktəbin ibtidai təhsil səviyyəsinin şagird və müəllimləri 244 nömrəli tam orta məktəbə köçürüləcək.

Nazirlikdən bildirilir ki, müəllimlərin və valideynlərin narahatlığına heç bir əsas yoxdur.



Qeyd edək ki, məqsəd ölkəmizdə uşaq və gəncləri sağlam həyat tərzinə istiqamətləndirmək, idmana meyl və marağı olan məktəbyaşlı uşaqları aşkara çıxarmaqla onların mənəvi və fiziki inkişafının təmin edilməsinə şərait yaratmaq, yüksək səviyyəli idmançılar hazırlamaq, habelə məktəblilərin potensial imkanlarının davamlı inkişafı üçün əlverişli infrastruktur və səmərəli tədris-idman sisteminin yaradılmasını təmin etməkdir.

❑ **Ləman MUSTAFAQIZI, Musavat.com**



## Ölkəyə poçtla narkotik gətirdən musiqiçini DTX həbs etdi

**Ölkəyə qaçaq yolla narkotik maddə gətirməkdə ittiham edilən musiqiçi hakim qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində ölkəyə qaçaqmalçılıq yolu ilə qanunsuz narkotik maddələri gətirməkdə təqsirləndirilən Çingiz Muradovun cinayət işi üzrə məhkəmə iclası keçirilib.**

Hakim Cavid Hüseynovun sədrliyi ilə keçirilən prosesdə "Azərpoçt"un əməkdaşı Elmira Abbasova bildirib ki, xaricdən Çingiz Muradovun adına fevralın əvvəlində məktub gəlib və bu barədə ona zəng edərək məlumat verib: "Çingizə göndəriş gəlmişdi, ona məlumat verdik. Sonra Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşları gəlib baratdakı əşyalara baxış keçirdilər".

Ç.Muradov deyib ki, o, poçta gedərək məktubdan imtina edib: "Oradan çıxandan sonra DTX məni saxlayıb, yenidən poçta gətirdi".

Ç.Muradov narkotiki heç kimə satmadığını da söyləyib. Hakim şahidlərin dindirilməsinin məhdudlaşdırıldığını bildirib. Növbəti iclasda sənədlərin tədqiq ediləcəyi elan olunub.

Proses sentyabrın 7-də davam etdiriləcək.

Çingiz Muradov Musiqi Akademiyasında təhsil alıb. Qeyd edək ki, Ç.Muradov qaçaqmalçılıq yolu ilə xarici ölkədən Azərbaycana qanunsuz narkotik maddə gətirməkdə təqsirli bilinərək, DTX əməkdaşları tərəfindən saxlanılıb. O, narkotik vasitəni xaricdən poçt vasitəsilə gətiribmiş.

❑ **İ.MURADOV, Musavat.com**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Ramil Usubov 1 nömrəli yeni şəxsiyyət vəsiqəsini prezident İlham Əliyevə təqdim etdi





**Sentyabrın 1-dən Azərbaycanda yeni nəsil elektron şəxsiyyət vəsiqələrinin tətbiqinə başlanır. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası vətəndaşının biometrik göstəricilərini özündə əks etdirən bir nömrəli elektron şəxsiyyət vəsiqəsi avqustun 31-də prezident İlham Əliyevə təqdim olunub.**

Dövlətimizin başçısı şəxsiyyət vəsiqəsi üçün foto çəkdirib. Prezident İlham Əliyev elektron imza qoyub. Bir nömrəli elektron şəxsiyyət vəsiqəsi dövlətimizin başçısına təqdim olunub.

Daxili işlər naziri Ramil Usubov və iqtisadiyyat naziri Şahin Mustafayev elektron şəxsiyyət vəsiqəsinin hazırlanması və vətəndaşlara verilməsi ilə bağlı prezident İlham Əliyevə məlumat veriblər.

Qeyd edək ki, yeni nəsil şəxsiyyət vəsiqələri təhlükəsizlik nöqteyi-nəzərdən köhnə vəsiqələrdən daha təkmil olacaq. Bu vəsiqələrə vətəndaşın yaşayış yeri üzrə qeydiyyatı, ailə vəziyyəti haqqında məlumatlar, habelə şəxsiyyət vəsiqəsi sahibinin biometrik fotosu və digər fərdi göstəriciləri özündə birləşdirən elektron daşıyıcı - çip yerləşdiriləcək. Bütün parametrlərə cavab verən, saxtalaşdırılmanın qarşısının alındığı, məlumatların elektronlaşdırıldığı yeni nəsil şəxsiyyət vəsiqələri üçün vətəndaşlar bütün ərazi polis orqanlarına və "ASAN xidmət" mərkəzlərinə müraciət edə bilərlər.

Şəxsiyyət vəsiqələrinin çapı isə Daxili İşlər Nazirliyinin 10 regional mərkəzində və iki "ASAN xidmət" mərkəzində həyata keçiriləcək.

## THY Bakıdan Sabiha Gökçen hava limanına uçuşları bərpa edir

**"Türk Hava Yolları" (THY) aviaşirkəti sentyabrın 6-dan etibarən İstanbulun Sabiha Gökçen beynəlxalq aeroportuna uçuşları bərpa edir.**

Aviaşirkətin Bakı nümayəndəliyindən verilən məlumata görə, "Türk Hava Yolları" Bakıdan sözügedən hava limanına uçuşlara 2015-ci ilin martın 15-də başlayıb və 2016-cı ilin payızında dayandırıb. İstanbulun Sabiha Gökçen beynəlxalq aeroportuna uçuşlar həftədə 3 dəfə yerinə yetiriləcək. İstanbuldan Bakıya uçuşlar həftənin IV, VI və VII günləri saat 21:15-də, Bakıdan İstanbula isə həftənin I, V və VII günləri saat 03:55-də həyata keçiriləcək.

Qeyd edək ki, hazırda "Türk Hava Yolları" aviaşirkəti İstanbuldan Bakıya gündə 4 reys, həftədə 28 reys üzrə uçuşlar yerinə yetirir. Sabiha Gökçen hava limanına uçuşların bərpa edilməsi ilə həftəlik uçuşlarının sayı 31-ə çatacaq.

## Hacı Qalib Salahzadə istintaqa aparıldı

### Sabiq deputat vətəndaşın bağ sahəsini darmadağın edib, özünü daşa basıb



**Sabiq deputat Hacı Qalib Salahzadənin adı daha bir qalmaqallı işə qarışıb. Hacı Qalib Salahzadə bu dəfə də bağ sahəsini zəbt etməkdə, oradakı 3 mərtəbəli əmlakı yerlə bir etməkdə, ağacları sındırmaqda, dağlıq ərazidə qanunsuz söküntü işləri aparmaqda, sənədləri saxtalaşdırmaqda ittiham edilir.**

Sabiq deputatın əməllərindən şikayətçi Azərbaycan vətəndaşı, Bakı sakini Seymur Quliyevdir. Onun şikayəti əsasında 3 ay əvvəl Baş Prokurorluqda əmlakının dağıdılması ilə bağlı cinayət işi başlanıb. İş materialları istintaq olunmaq üçün Daxili İşlər Nazirliyi İstintaq İdarəsinə göndərilib. Artıq iş üzrə Hacı Qalib Salahzadə ilə Seymur Quliyev arasında üzləşmə keçirilib. Seymur Quliyev istintaqa onun əmlakının məhz Hacı Qalib Salahzadə tərəfindən zəbt edilərək dağıdılmasını israrla bildirib, faktlar təqdim edib. 10-a yaxın şahid də Seymur Quliyevin dediklərinin təsdiq ediblər. Hacı Qalib Salahzadə isə deyib ki, həmin ərazi qardaşının istifadəsində olub. Seymur Quliyev Hacı Qalibin dediklərinin növbəti uydurma olduğunu bildirib.

Bu qalmaqallı olay haqda "Yeni Müsavat"ın 12 mart 2018-ci il tarixli sayında http://musavat.com/news/seyxin-qudasi-vetendasin-3-mertebeli-evini-dagidib-fotolar_511533.html yazı dərc etmişdik. Seymur Quliyev bildirmişdi ki, özəl əmlakını Hacı Qalib Salahzadə hələ Milli Məclisin deputatı olduğu dövrdə zəbt edib.

**Seymur Quliyev deyir ki, Hacı Qalib Salahzadə Milli Məclisin deputatı olduğu dövrdə vətəndaş olaraq onun mülkünü zəbt etməklə Azərbaycan Konstitusiyasını saymadığını ortaya qoyub:** "Bu adam deyir ki, Bilgəhdə mənəm, Bağdadda kim istəyir olsun. Bilgəhdə Azərbaycan qanunlarının işləmədiyini Hacı Qalib Salahzadə əməlləri ilə sübut etməyə çalışır, mənim mülkümü zəbt etməklə 7 ildir ki, buna nail olub. Mən Azərbaycan dövlətini sabiq deputata qanunların gücünü göstərməyə, mənim vətəndaş olaraq pozulan mülkiyyət hüququmun bərpa edilməsinə çağırıram. Baş prokuror Zakir Qaralovdan, daxili işlər naziri Ramil Usubovdan xahiş edirəm bu işi öz nəzarətlərinə götürüb araşdırmasını təmin etsinlər. 7 ildir ki, mən konstitusiyamızda təsbit olunan mülkiyyət hüququmu bərpa edə bilmirəm. Hacı Qalib Salahzadə məni öz mülkümdən daşa basmaqla qovub. 3 mərtəbəli evimi buldozerin qabağına verib dağıdıb. Hazırda mənim mülkümü dayanacaq kimi istifadə edir. Orada hovuz inşa etdirmişdim, dekorativ ağaclar əkdirmişdim, su quyusu vardı. 2 ev inşa etdirmişdim. Zor gücünə torpağım zəbt olunub, əmlakım darmadağın edilib. Mən Azərbaycan dövlətindən baş verən qanunsuzluğun qarşısının alınması üçün vətəndaş olaraq dəstək, kömək istəyirəm".

**Qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.**

❑ **E.HÜSEYNOV, "Yeni Müsavat"**

## Hacı İbrahim yanan bina ilə bağlı açıqlama verdi

**Bakının Nəsimi rayonu ərazisində yaşayış binasında avqustun 31-də yanğın hadisənin olduğu haqda məlumat yayılıb. "Report"un xəbərinə görə, hadisə rayonun Sübhi Salayev küçəsində qeydə alınıb. Sakinlər sayta bildiriblər ki, yanğın olan bina Hacı İbrahim kimi tanınan iş adamı İbrahim İbrahimova məxsusdur.**

Hacı İbrahim isə musavat.com-a bildirib ki, yayılmış məlumatda qeyri-dəqiqlik var: "Birincisi, saytlar mənim adımı başlığa çıxarıb, hadisəyə dəxli olmayan bina şəkli qoyublar. İkincisi, orada bina yoxdur. Bizim şirkət o ərazini alıb. Ərazidəki ailələri köçürmüşük, köhnə evlər də sökülüb. Bu gün kimsə gəlib oradan kabel kəsib aparıb, siqaret çəkib atıb, nəticədə ehtiyatsızlıqdan yanğın baş verib".

**İş adamı bildirib ki, 1.2 hektar ərazidə 10 bloklu bina tikmək istəyiblər:** "Dövlət Şəhərsalma və Arxitektura İdarəsi isə həmin ərazidə 3 bloklu binaya icazə verib. Ona görə də işlər yubanır. Sənədləşmə, layihə işləri ilə məşğuluq. Bu əsnada orada kimsə ehtiyatsızlıq edib, yanğın törədəcəksə, bunda biz günahkar deyilik".

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 184 (7073) 1 sentyabr 2018

# "Qasid"in anbarını hərracda 1 milyon manata satdılar, redaksiyalara borcu isə ödənmədi

**İflas etmiş mətbuat yayımı firması "Qasid" ASC-nin şəhərin mərkəzində olan anbarı hərraca çıxarılıb və satılıb. Redaksiyamıza daxil olan məlumata görə, hərrac Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən keçirilib, anbar və anbarın altındakı torpaq sahəsinin 1 milyon manata satıldığı bildirilir. Ərazi dəfələrlə baha qiymətə malik olsa da, nədənsə belə ucuz qiymətə satılıb.**

## Məhkəmə qərar çıxarsa da, ASC-nin "Yeni Müsavat"a olan 21 min 388 manat məbləğində borcu bu günə qədər qaytarılmayıb




Qeyd edək ki, "Yeni Müsavat" qəzeti ilə "Qasid" ASC arasında qəzetə abunə qəbulunu və pərakəndə satışın təşkil edilməsi barədə müqavilə bağlanılıb. Amma "Qasid" ASC "Yeni Müsavat" qəzeti ilə bağlanmış müqavilənin şərtlərinə əməl etməyib.

"Yeni Müsavat" qəzeti ilə "Qasid" ASC arasında borc qalığının müəyyənləşdirilməsi ilə bağlı 15 yanvar 2016-cı il tarixində akt tərtib olunub. Həmin akta əsasən cavabdeh tərəf olan "Qasid" ASC-nin "Yeni Müsavat" qəzetinə 1 yanvar 2016-cı il tarixə abunə üzrə 5694 manat və satış üzrə 15694,18 manat olmaqla ümumilikdə 21388 (İyirmi bir min üç yüz səksən səkkiz) manat 18 qəpik məbləğində borcunun olduğu müəyyən edilib. Akt hər iki tərəfin səlahiyyətli şəxsləri tərəfindən müvafiq imza və möhürlə təsdiq edilib.

Ümumilikdə "Qasid" ASC-nin ölkədə fəaliyyət göstərən mətbuat orqanlarına, həmçinin keçmiş əməkdaşlarının əmək haqları daxil 500 min manatdan çox borcu qalıb.

"Yeni Müsavat" qəzeti Bakı şəhəri 1 saylı Yerli İqtisad Məhkəməsinə iddia ilə müraciət edib və borcun ASC-nin əmlakına yönəldilməsi yolu ilə ödənilməsinin təmin olunmasını xahiş edib. Məhkəmə iddianı təmin edib və borcun "Qasid" ASC-nin əmlakına yönəltməklə ödənilməsi barədə qətnamə çıxarıb.

Lakin üzərindən üç ilə yaxın zaman keçməsinə baxmayaraq qərar bu günədək icra olunmayıb. "Qasid" ASC "Yeni Müsavat" qəzetinə olan 21 min 388 manat məbləğində borcunu bu günə qədər də ödəməyib.

"Yeni Müsavat" qəzetinin hüquqşünası Vaqif Hüseyn bildirib ki, "Qasid" ASC-nin şəhərin mərkəzindəki anbarının hərracda satılması haqda məlumatı öyrənəndən sonra Əmlak Məsələləri Dövlət Komitəsinə, Nəsimi Rayon İcra və Probasiya Şöbəsinə rəsmi olaraq müraciət ünvanlayıb. Hüquqşünas bildirib ki, borclu tərəfin hərracda satılan anbarının dəyəri redaksiyaya ödənməli olan məbləği dəfələrlə üstələyir. Belə bir halda borcun ödənməməsi absurddur. Hüquqşünas həmçinin növbəti həftənin ilk iş günündən bu məsələ ilə bağlı ciddi araşdırma aparılacağını da bildirib.

❑ **E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**



# Eldar Əzizov eyvanlardan paltar asmağı qadağan etdi - yeni qərar

## Mənzil İstismar İdarələri (MİS) və Mənzil Təsərrüfat Birliyi (MTB) işçiləri binalarda bu işlə bağlı reyd keçirirlər

**Bakı Şəhər İcra Hakimiyyəti Bakı ərazisində küçə və prospektlərə baxan binalarda mənzillərin eyvanından paltar asmağı və qurutmağı qadağan edib. Bu haqda musavat.com-a sakinlərdən məlumat daxil olub. Hazırda bu iş üzrə rayon icra hakimiyyətlərinə tapşırıq verilib. Mənzil sahiblərindən tələb olunur ki, küçə və prospektlərə baxan eyvanlardan paltar asılmasın.**



Musavat.com-a verilən məlumatda həmçinin bildirilir ki, bu qadağa Bakının bütün rayonlarına şamil olunacaq. Hazırda Mənzil İstismar İdarələri (MİS) və Mənzil Təsərrüfat Birliyi (MTB) işçiləri binalarda bu işlə bağlı reyd keçirirlər. Sakinlərdən tələb olunur ki, iki eyvanlı evə sahib olanlar paltarlarını küçəyə yox, həyətə baxan eyvandan assınlar. Həyətlərə baxan eyvanı olmayanların isə eyvanda quruducu asılqanlardan istifadə etməsi tələb olunur.

Musavat.com xatırladır ki, bu ilin iyun ayında Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevin rayon sakinlərindən balkonlardan paltarların qurudulması üçün çəkdikləri zivələri yığışdırmağı tələb etmiş və bu, cəmiyyətdə birmənalı qarşılanmamışdı.

Qeyd edək ki, balkona paltar asmaq qadağası ilk dəfə bir neçə il əvvəl Naxçıvanda tətbiq olunub. Daha sonra isə bir neçə ay Sumqayıt şəhərində də bu cür qadağalar tətbiq edilib. İndi isə Bakıda bu cür qadağanın qoyulmasına başlanıb.

2015-ci ildə də paytaxtda bu hadisə yaşanmışdı. Bakının mərkəzi küçələrində yaşayış binalarının divarlarına elanlar vurulmuş, bu elanlarda binaların küçə və prospektlərə baxan eyvanlarına əşyalar qoyulmasının, paltar asılmasının qadağan edildiyi bildirilmişdi. Həmin vaxt mənzillərə bir-bir gedilərək onların sahiblərinə xəbərdarlıq da edilirdi. Bu, həmin vaxt paytaxtda keçirilən Avropa Oyunlarına görə həyata keçirilən bir prosedur kimi təqdim edilirdi.

Musavat.com xatırladır ki, bu qərar Bakı şəhər icra başçısı vəzifəsini müvəqqəti yerinə yetirən Eldar Əzizova məxsusdur. E.Əzizov Gəncə şəhər icra başçısı vəzifəsinə gələndə də ilk qərarlarından biri binaların prospektlərə baxan mənzillərindən zivələrin yığışdırılması olmuşdu. Eyni qərarı Sumqayıtın icra başçısı olanda da sözügedən şəhərdə tətbiq etmişdi.

Xarici ölkələrdə, xüsusən Avropa şəhərlərində, eləcə də Amerikada eyvanlardan paltar sərmək ənənəsi yoxdur. İnsanların evlərində qurutma maşını olur və onlar paltar sərməyə xüsusi vaxt, yer sərf etmirlər. Bundan başqa, xarici ölkələrdə camaşırxana ənənəsi geniş yayılıb. Evində paltaryuyan və paltarqurudan maşına yer vermək, eləcə də bu işlərə su, elektrik xərci ödəmək istəməyənlər kilo ilə paltar yuyulan camaşırxanaların xidmətindən istifadə edirlər.

❑ **SEVİNC,**
**Musavat.com**

# Bakı xanlarının sarayı bərpa olunacaq

## Bakı şəhərinin qala divarlarından kənarda da xan bağı və xan sarayı mövcud imiş

**İçərişəhərdə XVII-XVIII əsrlərə aid xan sarayı bərpa ediləcək.**

"Trend"in məlumatına görə, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən qədim tarixi tikilinin yenidən qurulması, ətrafının abadlaşdırılması və texniki ləvazimatların təchizatı işlərinin satın alınması üçün təkliflər sorğusu elan edilib.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər sentyabrın 10-u saat 12:00-dək qəbul olunur.

Bakı xanlarının evi Böyük Qala küçəsi 44, 46, 48 və 50 ünvanlarında yerləşir və ölkə əhəmiyyətli tarix və mədəniyyət abidəsi sayılır.



Şirvanşahlar dövlətinin süqutundan sonra XVII əsrdə Azərbaycan ərazisində yaranan xanlıqlar dövründə Bakı xanları Şamaxı qapısının sol tərəfindəki ərazidə yerləşən sarayda yaşayıblar. 1806-cı ildə rusların Bakını işğal etməsindən sonra xan sarayında rus hərbi qarnizonu yerləşdirilib. Postsovet dövründə isə bu ərazidə hərbi polis idarəsi yerləşirdi.

Vaxtilə bu ərazidə hovuzlu gül-çiçəkli bağça var imiş. Bu əzəmətli saraydan hazırda, sadəcə, giriş portalı və bərpa olunmuş kiçik məscid salamat qalıb. Xan sarayının ərazisində qala divarlarının dibində yeraltı hamam hələ də torpaq altında durur. Son orta əsrlərdə Bakı şəhərinin qala divarlarından kənarda da xan bağı və xan sarayı mövcud imiş.

1985-1986-cı illərdə Bakı xan sarayının ərazisinin bir hissəsində arxeoloji qazıntılar aparılıb. Buradan külli miqdarda maddi-mədəniyyət nümunələri ilə yanaşı, su-kəhriz sistemi və yeraltı memarlıq tikililəri də aşkar olunub.

Bakı xanlarının sarayında aşağıdakı xanlar yaşayıblar:

1747-1765 - I Mirzə Məhəmməd xan (Dərgahqulu xanın oğlu);

1765-1784 - Məlik Məhəmməd xan (I Mirzə Məhəmməd xanın oğlu);

1784-1791 - II Mirzə Məhəmməd xan (Məlik Məhəmməd xanın oğlu);

1791-1792 - Məhəmməd Qulu xan (I Mirzə Məhəmməd xanın oğlu);

1792-1806 - Hüseyn Qulu xan (Hacı Əliqulu Ağa xanın oğlu).

YENİ MÜSAVAT
N 184 (7073) 1 sentyabr 2018



# “Meksika dalğası”nı götürdük, bəs “yapon təmizkarlığı” necə olsun?

**Xalid KAZIMLI**

**Bu mövzuda çox yazılıb və belə görünür ki, hələ çox yazılacaq. Əslində çox yazılmalıdır, deyilməlidir, ta o vaxtacan ki, bu məsələ birdəfəlik həll olsun.**

İlk baxışdan pintilik, natəmizlik, olduğun hər yeri zibilləmək o qədər də qlobal problem deyil. Çox danışanda bir az ironik şəkildə deyirlər, bundan ötrü maaş alanlar, süpürgəçilər, xadimələr var, hamı təmizkar olsa, onlar işsiz qalar.

Ancaq elə deyil. Dünyanın ən təmiz şəhərlərində belə kifayət qədər təmizlik işçiləri var və onlar heç də işsiz qalmırlar, əksinə, texnika ilə işləyirlər, sadəcə, zəhmətləri bizdəkindən qat-qat yüngüldür.

Budur, sosial şəbəkə fəalları Tofiq Bəhramov adına stadiondan bir şəkil paylaşıblar: tum qabıqları, onun paketləri, sellofon torbalar, siqaret kötükləri, sair zir-zibil qalaqlanıb qalıb. Bunu “Qarabağ”-"Şerif" oyununa baxmağa gələn, qələbədən ləzzət alan, üç dəfə “Qooool!” deyə bağıran adamlar qoyub gedib.

Düzdür, bəziləri bu zibili jurnalistlərin qoyub getdiyini iddia edirlər, amma elə deyil. Hərçənd heç fərqi yoxdur, “zibilli qonaq sektoru”nda oturanlar da həmin jurnalistlərin qohumu-qardaşı, qonşusudur. Belə zibillərə hətta VİP sektorlarda da rast gəlmək mümkündür.

Kimsə deməsin ki, 20 min adamın toplaşdığı stadiondur, başqa cür mümkün deyil. Elə şey yoxdur. Hər kəs tökdüyünü yığışdırsa, hətta lap əvvəldən əlinə gələni yerə tökməsə, belə olmaz.

İyun ayında Moskvada keçirilən futbol mundialında yaponlar (istər futbolçular, istərsə də azarkeşlər) necə edirdilər? Əllərindən yerə düşən çöpü də yığışdırır, paketləyir, hər yeri silib-süpürüb səliqəyə salır gedirdilər.

Onlar bu hərəkətləri ilə dünyaya dərs verdilər və bütün dünya mediası yaponların bu hərəkətini lazımınca işıqlandırdı. Hamı da alqışladı. Çox güman ki, onlardan ibrət dərsi götürənlər çox oldu və gələcəkdə keçirilən irimiqyaslı yarışlarda bunun əks-sədasını görəcəyik.

1986-cı il mundialından “Meksika dalğası”nı, 2016-ci ildə keçirilən Avropa çempionatından (futbol üzrə) islandların “balina çağırmaq” ayinini birəbir götürüb stadionlarımızda tətbiq edən azarkeşlərimiz “yaponların öz zibilini yığışdırmaq” nümunəsini yaxın qoymurlar.

Bir stadionlarda deyil, camaat öz məhəlləsinin, küçəsinin təmizlinin qayğısına qalmır. Çox adam yalnız öz həyətini, evinin içini təmiz saxlayır, qapısının kandarında zibil boğaza çıxsa da, əlini ağdan-qaraya vurmaz, yalnız şikayət edər.

8 il öncə ABŞ-ın Cənubi Karolina ştatının paytaxtı Kolombia şəhərinin kənarındakı yaşayış massivində rast olduğum bir epizodu xatırlayıram. Amerikalı professorla ətrafı gəzirdik. Hər yan ya asfalt, ya da çəmənlik, ağaclıq idi. Ən ümdəsi, hər tərəf səliqəli və tərtəmizdi. Yol yeridiyimiz yerdə birdən professor əyilib yerdən bir əzilmiş flomaster götürdü, əlində saxladı. Təxminən 400-500 metr yol getdik. Professor əlindəki zibili ilk gördüyümüz zibil qabına atdı.

Bu, o demək idi ki, bu şəhərdə hələm-hələm küçəyə, səkiyə heç nə atılmır, təsadüfən nəsə düşəndə də bir şüurlu vətəndaş həmin şeyin bələdiyyədən maaş alan təmizlikçi tərəfindən yığışdırılacağını gözləmir, özü götürüb zibil qabına atır ki, şəhəri, küçəsi təmiz olsun.

Bəs bizdə necədir? Elə bir gün olmaz ki, maşınla bir kilometr yol gedək və pəncərədən küçəyə, yolun ortasına atılan siqaret kötüklərini, sellofon torbaları, plastik və dəmir su qablarını görməyək. Elə bir küçə olmaz ki, orada yolda dığırlanan enerji içkilərinin qabları maşın təkərinin altında qalıb partlayışa bənzər səs çıxarmasın. Küləkli günlərdə havada uçuşan sellofon torbalar isə başqa aləmdir.

Bəzən futbol matçlarında canlı yayım edən telekanallar vasitəsilə bütün Avropa əhlu meydançamızın ortasında topla yanaşı, başqa yumru şeylərini olduğunu görür - bu, həmin torbalardır.

Ancaq bir neçə ildir ki, turist kimi ölkəmizə daraşmış ərəblərin pintiliyindən dastanlar bağlayırıq. Hər kəsin onların natəmizliyi, kobudluğu, pintiliyi, vəhşiliyi barədə bir hekayəsi var.

İndi bir çoxları haqlı olaraq sual edir: olduğunuz hər yeri zibilləyir və eləcə də qoyub aradan çıxırıqsa, ərəblərdən nə fərqimiz var?

Bu, haqlı sualdır. Düzdür, bizim ərəblərdən çox fərqimiz var, amma zibilləmə işinə münasibətdə artıq bu fərq aradan qalxmaqdadır.

Elə utanc gətirən də budur. Azərbaycan turizm ölkəsi olaraq dünyaya açılmaq istəyirsə, adamlar təkcə evini, obyektini yox, küçəsini, qəsəbəsini, şəhərini də təmiz saxlamalıdır.

Bu, çətin deyil, yaponlar eyni zamanda həm vətənpərvər, həm də mədəni və təmizkar ola bilirlər.

# “Gürcüstanın baş nazirinin Azərbaycana səfərinin iki məqsədi var idi”

## **Tanınmış politoloq:** “Azərbaycan uzun illərdir Gürcüstana xarici sərmayə qoyan ölkələr arasında birinci yerdədir”

**Gürcüstanın baş naziri Mamuka Baxtadze 30-31 avqustda Bakıda səfərdə olub. Azərbaycan prezidenti İlham Əliyev avqustun 30-da Mamuka Baxtadzeni qəbul edib.**

Prezident İlham Əliyev görüşdə bildirib ki, əsrlər boyu xalqlarımız dostluq, mehriban qonşuluq şəraitində yaşamışlar. Bu gün iki müstəqil dövlət arasındakı əlaqələr möhkəm təməl üzərində qurulub. Gürcüstan və Azərbaycan birlikdə bir çox önəmli layihələri icra edib: “Biz dünyanın enerji xəritəsini birgə səylərlə dəyişdirdik. Nəqliyyat istiqamətində birgə həyata keçirdiyimiz layihələr Avrasiya qitəsi üçün böyük önəm daşıyır. Bütün bu layihələrin icrasında həm Gürcüstan, həm Azərbaycan, həm Türkiyə tərəfi fəal əməkdaşlıq edir. Hesab edirəm ki, indiki dövrdə biz ticarət dövriyyəsinin artırılması ilə bağlı əlavə səylər göstərməliyik. Mən bilirəm ki, Gürcüstanda çox gözəl investisiya iqlimi mövcuddur. Biz çox şadıq ki, Azərbaycan uzun illərdir Gürcüstana xarici sərmayə qoyan ölkələr arasında birinci yerdədir. Biz bu gün bir çox məsələləri müzakirə edəcəyik, o cümlədən regional əməkdaşlıq məsələlərini”.

**Gürcüstanın baş naziri Mamuka Baxtadze isə iki ölkə arasında münasibətlərin sürətlə inkişaf etdiyini vurğulayaraq deyib ki, Gürcüstan və Azərbaycan strateji tərəfdaşdırlar və bu, çox böyük nailiyyətdir:** “Bizim üçün xalqlar arasında münasibətlər çox önəmlidir. Bizim üçün eyni zamanda mehriban qonşuluq, dost və qardaşlıq əlaqələri çox vacibdir. Bizim əcdadlarımız əlaqələrimizin təməlini çox gözəl qoyublar və bu əlaqələr bunun əsasında artıq sürətlə inkişaf edir. Bizim birlikdə həyata keçirdiyimiz regional layihələr beynəlxalq əməkdaşlıq və region üçün həqiqətən çox faydalıdır. Bizim regional əməkdaşlıq çərçivəsində nəqliyyat, energetika və digər sahələrdə böyük uğurlarımız var. Əlbəttə, potensialımız böyükdür və ümid edirəm ki, ikitərəfli əlaqələr nəticəsində və ikitərəfli layihələr həyata keçirməklə bu potensialı biz daha da yaxşı inkişaf etdirə bilərik. Bizim ölkələr arasında ticarət dövriyyəsi daha da artmaqdadır. Bu il bu, ola bilsin milyard dollara çatsın, lakin bizim potensialımızın tam istifadəsi demək deyil, daha çox potensialımız mövcuddur. Əminəm ki, ikitərəfli əməkdaşlıq nəticəsində gələn iki il ərzində biz bunu 50-60 faizə qədər artıra bilərik”.

Azərbaycanın baş naziri Novruz Məmmədov da Mamuka Baxtadze ilə görüşüb. Söhbət zamanı kənd təsərrüfatı, turizm, sərmayə qoyuluşu, həmçinin idman, təhsil sahələrində əməkdaşlığın inkişaf perspektivləri, qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirə olunduğu rəsmi məlumatda yayılıb.



Gürcü baş nazir Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədovla da görüşüb.

Mamuka Baxtadzenin Azərbaycana səfəri dünən başa çatıb.

Qeyd edək ki, bu günədək Azərbaycanla Gürcüstan arasında 108-dən çox ikitərəfli dövlət və hökumət sənədləri imzalanıb. 2017-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsi 545 milyon dollardan çox olub. 2018-ci ilin yeddi ayı ərzində isə bu göstərici 392 milyon dollardan çoxdur.

Hər iki ölkə regional layihələrin iştirakçısıdır. Minə yaxın Azərbaycan şirkəti Gürcüstanda, 300-ə yaxın Gürcüstan şirkəti isə ölkəmizdə çalışır. Azərbaycan və Gürcüstanın Avropanın enerji təhlükəsizliyində çox böyük rolu var.

**Gürcüstanın yeni baş nazirinin səfərini şərh edən “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** bildirdi ki, Mamuka Baxtadze baş nazir olmamışdan əvvəl “Gürcüstan Dəmir Yolları” Səhmdar Cəmiyyətinin sədri idi. O, bu vəzifədə bir neçə dəfə Bakıda olub. Yəni Mamuka Baxtadzenin bundan əvvəl də Azərbaycanla əməkdaşlıqda böyük təcrübəsi var. İki ölkə arasındakı iqtisadi münasibətlər yüksək səviyyədədir. Buna misal olaraq xeyli birgə layihəni göstərmək olar. Üçtərəfli formatda (Gürcüstan-Azərbaycan-Türkiyə) da əməkdaşlıq uğurla inkişaf edir. Azərbaycan Gürcüstan iqtisadiyyatının əsas investorlarındandır. Azərbaycan uzun illərdir Gürcüstana xarici sərmayə qoyan ölkələr arasında birinci yerdədir. Buna həm də Gürcüstandakı münbit investisiya mühiti şərait yaradır: “Buna baxmayaraq, iki ölkə arasındakı iqtisadi və ticarət əməkdaşlığını daha da artırmağa potensial var. Gürcüstanın baş nazirinin Azərbaycana səfərinin iki məqsədi var idi. Birinci məqsəd əməkdaşlıqdakı uğurları bir daha qeyd etmək idi. Bunları hər dəfə qeyd etmək həm Azərbaycan, həm də Gürcüstan üçün faydalıdır. İkinci məqsəd əməkdaşlığın artırılması istiqamətlərini müəyyənləşdirmək idi. Məsələn əsas hədəflərdən biri ticarət mübadiləsini yaxın iki ildə 50-60 faiz artırmaqdır.

Gürcüstan Azərbaycanla iqtisadi əməkdaşlığı artırarkən, Ermənistanla iqtisadi münasibətlərdə irəliləyiş yoxdur. Məsələn, Rusiya ilə Ermənistanı Gürcüstan üzərindən birləşdirən nəqliyyat xəttində problemlər həll olunmamış qalır. Dağlardan keçən bu yol tez-tez bağlanır. Həmin yolun daima işlək qalması nə Rusiyanın, nə də Gürcüstanın marağındadır. Bundan əziyyət çəkən Ermənistandır. Ancaq Ermənistanın maliyyə vəsaiti yoxdur ki, həmin yolun işlək vəziyyətdə qalmasını təmin edə bilsin".

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# Hacıbala Abutalıbov istintaqa cəlb oluna bilər - Bakıda söküntü skandalı

**Bakı Şəhər İcra Hakimiyyətinə başçının müavini təyin olunan Eldar Əzizov fəaliyyətinə paytaxt ərazisində söküntülərlə başlayıb. Belə ki, icra hakimiyyəti Bakının yol kənarlarında, keçidlərdə, səkilərdə qeyri-qanuni tikilmiş və sakinlərin gediş-gəlişinə mane olan obyektlərin siyahısını hazırlayır. Tezliklə həmin obyektlərin söküntüsünə başlanacaq. Bildirilir ki, bu obyektlər qeyri-qanunidir və tikintini aparan sahibkarlar, Bakı Şəhər İcra Hakimiyyətindən və yaxud da yerli icra orqanlarından müvafiq icazəni almayıb, onlara bu barədə məlumat verməyiblər. Həmçinin qeyd olunur ki, bu obyektlərin heç bir sənədləri yerində deyil, ona görə də sökülməlidir.**

## Paytaxtda qanunsuz adlandırılan obyektlərə icazəni BŞİH verib, amma bunun zərbəsi sahibkarlara dəyir; **ekspert:** “Məhkəmə qərarı olmadan hansısa obyektlərin sökülməsi, qeyri-qanuni adlandırılması tamamilə məntiqsiz yanaşmadır”




“Yeni Müsavat”ın məlumatına görə, artıq Bakının bəzi yerlərində neçə obyekt sökülüb, tikintiyə yeni başlayanların isə qoyduqları bünövrə dağıdılıb. Öyrəndik ki, söküntü dalğası ilk olaraq Xətai rayonunu “vurub”. Belə ki, burada ötən günlər ərzində 7 obyekt sökülüb. Bu obyektlərin sökülməsinə əsas kimi bildirilib ki, tikililər gediş-gəlişə mane olublar. Ona görə də sökülməsi uyğun bilinib. “Ukrayna” dairəsinin yaxınlığında isə maraqlı hadisə baş verib. Belə ki, əvvəlcə sahibkara tikinti üçün icazə verilib, sahibkar obyektinin bünövrəsini qazıb, işlərə başlayıb. Obyektin divarlarını qaldıran zaman isə icra hakimiyyətinin nümayəndələri gəlib, tikilini qanunsuz hesab edib, bünövrəni dağıdıblar. Hazırda da ərazi qazılmış, dağılmış vəziyyətdədir.

Bundan əlavə, metronun “Əhmədli” stansiyasının yaxınlığında da bir neçə hasara alınmış yer var ki, orada da tikililərə sonradan icazə verilməyib və sahibkarın qaldırdığı divarlar sökülüb.

**Məlumat üçün onu da qeyd edək ki, söküntü aparılan ərazilərdə xeyli sayda obyekt var. Həmin obyektlərin sahibləri ilə söhbətimiz zamanı onlar bildirdilər ki, icra hakimiyyəti bu tikililəri, obyektləri qanunsuz adlandıra bilməz:**

“Çünki burada daşı-daş üstünə qoyduğumuz zaman icra hakimiyyətinin nümayəndələri, eləcə də MİS-in əməkdaşları, hətta digər qurumların nümayəndələri də bir-bir gəlib, nə tikilməsi ilə maraqlanırlar. Buradakı obyektlərin hamısının da müvafiq sərəncamı var. Heç bir obyekt sərəncamsız tikilə bilməz”.

Obyekt sahibləri bildirdilər ki, hər ay bütün müvafiq qurumlardan nümayəndələr gəlib yoxlama aparırlar. Onlar arasında Bakı Şəhər İcra Hakimiyyətinin nümayəndələri də olur. Lakin indiyə qədər obyektin qeyri-qanuni olması ilə bağlı onlara kimsə nə isə deməyib. Maraqlı hal da budur ki, yeni obyektlərin tikintisinə verilən icazəni ləğv etməklə bərabər, köhnə obyektləri də sökürlər. Qeyri-qanuni adlandırdıqları üçün də sahibkarlara heç bir kompensasiya ödənilmir.

Ötən sayımızda da yazmışdıq ki, Bakı Şəhər İcra Hakimiyyətində sərəncam qalmaqalı yaşanır. Belə ki, rəsmi məlumatlara görə, sahibkar BŞİH-in saxtalaşdırılmış sərəncamı əsasında obyekt tikmək istəyib. Bununla bağlı Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 188.2 (qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsi üzərində özbaşına tikinti və ya quraşdırma işlərini aparma), 320.1 və 320.2-ci (rəsmi sənədləri qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə) maddələri ilə cinayət işi də başlanıb...

Aprelin 21-nə qədər BŞİH-in başçısı Hacıbala Abutalıbov olub. Sahibkarlar bildirirlər ki, verilən sərəncamlarda birbaşa Abutalıbovun da imzası olub. Əgər belədirsə, o zaman H.Abutalıbovu da məsuliyyət gözləyirmi? Yəni Bakıda səkiləri tutan bu qədər obyektlərin, çayxanaların hamısı özbaşına, qanunsuzmu tikilib?

Hüquqşünaslar bildirirlər ki, bu kimi araşdırmaların sonunda Bakı Şəhər İcra Hakimiyyətinin vəzifəli şəxsləri də cinayət məsuliyyətinə cəlb edilə bilər...

**“Yeni Müsavat”a danışan iqtisadçı Natiq Cəfərli bildirib ki, bu məsələlərdə hüquqi kazus yaranır:**

“Sərəncamı hər hansı bir şəxs vermir. O, bunu dövlət adına verir və tutduğu vəzifənin ona verdiyi səlahiyyətlər çərçivəsində bunu edir. Həmçinin sərəncamın arxasında dayanan da şəxslər deyil, dövlətin qayda-qanunlarıdır. Qeyri-qanuni sərəncam anlayışı isə ancaq məhkəmə yolu ilə müəyyənləşdirilə bilər. Məhkəmə belə bir qərar verə bilər ki, Azərbaycan Respublikasının Konstitusiyasına və yaxud da hansısa qanunverici aktlarına uyğun olmayan sərəncam verilib. Həmin sərəncamı verən şəxs də dərhal məsuliyyətə cəlb olunmalıdır. Azərbaycanda icra hakimiyyəti orqanlarında çox qəribə bir tendensiya var. İstər bölgələrdə, istərsə də Bakıda yeni təyin olunmuş icra başçısı özündən öncəki sərəncamları qeyri-qanuni elan edir. Bu cür halların dəfələrlə şahidi olmuşuq və oluruq. Regionlarda da bu, tez-tez baş verir. Hansısa rayona icra başçısı təyin olunan kimi həmin şəxs özündən əvvəlki icra başçısının sərəncamlarını qeyri-qanuni sayır. Bu, tamamilə dövlətçilik ənənələrinin kökündən çeynənməsi deməkdir. Çünki o sərəncama vurulan möhür dövlətindir, şəxsin deyil. Bakı şəhərində son zamanlar baş verən söküntülər isə heç bir məhkəmə qərarı olmadan aparılır. Məhkəmədə sübut olunmayıb ki, bu, qeyri-qanuni tikilidir və hər hansı bir formada şəhər infrastrukturuna ziyan vurur. Belə olmadığı halda söküntü işlərini necə apara bilərlər? Məhkəmə qərarı olarsa, belə söküntülər yalnız kompensasiyanın ödənilməsi ilə həyata keçirilə bilər. Nə kompensasiyalar normal şəkildə ödənilir, nə də sahibkarın qoyduğu vəsait nəzərə alınmır. Bu da ümumi biznes mühitinə də çox mənfi təsir göstərir. İstər daxili, istərsə də xarici investor anlayır ki, qoyduqları vəsaiti sabah belə əməllərlə sıfıra salına, obyektlərini sökə bilərlər. Məhkəmə qərarı olmadan hansısa obyektlərin sökülməsi, qeyri-qanuni adlandırılması tamamilə məntiqsiz yanaşmadır”.

**N.Cəfərli də bildirib ki, bu proseslərdə məntiqlə BŞİH-in keçmiş rəhbərliyi məsuliyyətə cəlb oluna bilər: “İzahat yoxdursa, bu, həm hüquqi, həm də siyasi məsuliyyət yaradır”.**

**❑ Əli RAİS,**
**“Yeni Müsavat”**
**Fotolar müəllifindir**




## Elmar Vəliyevin keçmiş komandası hədəfdə - araşdırma başlayıb

### Gəncədə torpaq alverçisi kimi tanınan Məharət Mustafayev işdən çıxarıldı və fəaliyyətinin araşdırılması üçün komissiya yaradıldı

**Gəncə Şəhər İcra Hakimiyyətinin yeni başçısı Niyazi Bayramov İH-də ciddi islahatlar və araşdırmalara başlayıb. Bu barədə müsavat.com-a daxil olan məlumatda bildirilir ki, yeni başçı vətəndaşların ən çox şikayətçi olduğu sahələrə məsul olan qurum və onların rəhbərlərinin fəaliyyəti, əməlləri ilə bağlı ilkin incələmədən sonra müvafiq addımlar atmağa başlayıb.**

İlkin olaraq illərdir yerli əhaliyə “qan udduran” Gəncə şəhər Memarlıq və Şəhərsalma İdarəsinin rəisi, sabiq başçı Elmar Vəliyevin “sağ əli” kimi tanınan Məharət Mustafayev işdən azad edilib. Başçı Niyazi Bayramov Gəncə şəhər Memarlıq və Şəhərsalma İdarəsinin rəisinin fəaliyyətinin araşdırılması üçün komissiya yaradılması barədə qərar verib.

Bundan başqa, daha çox şikayət edilən Gəncə şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin və onun rəhbərinin də fəaliyyətinin araşdırılmasını komissiyaya tapşırıb.

Məlumatı verən mənbə bildirir ki, Məharət Mustafayev Elmar Vəliyevin “torpaq dəllalı” olub. O, uzun illər ərzində Gəncədə qanunsuz torpaq satışını həyata keçirib, iş adamlarından sənəd bəhanələri ilə xərac toplayıb, bir mülkü müxtəlif saxta sənədlərlə bir neçə şəxsə satıb. O, Gəncədə yüzlərlə vətəndaşa aid mülkə, torpaq sahəsinə faktiki olaraq saxta sənədlər verib.

Mənbə qeyd edir ki, Gəncədə böyük qanunsuzluqlara yol vermiş keçmiş Vəliyevçilər ətrafında aparılan yoxlamalar həbslərlə nəticələnə bilər.

Nəzərə çatdıraq ki, Məharət Mustafayevin adı mediada çoxdan məşhurdur. Onun qanunsuzluqlara yol verməsi, vətəndaşları incitməsi haqda indiyədək onlarla vətəndaşın müraciətləri də mediada dərc olunub.

Qalmaqallı şikayətlərdən biri də Gülnar Günəşliyə məxsus idi. Gəncə Memarlıq və Şəhərsalma İdarəsində sektor müdiri olmuş bu xanım Məharət Mustafayevin ona əxlaqsız təkliflər etdiyini, bununla razılaşmadığı üçün işdən çıxarıldığını, intihara cəhd etdiyini bildirmişdi. Həmin vaxt G.Günəşli M.Mustafayevin çoxsaylı qanunsuzluqlarından da bəhs etmişdi.

Onun şikayəti əsasında cinayət işi başlanıldığı, Məharət Mustafayevin ifadəsinin alındığı da bəlli olmuşdu. Amma sonradan Məharət Mustafayev Elmar Vəliyevin dəstəyini alaraq, “sudan quru çıxmışdı”, hətta G.Günəşliyə də “təkzib bəyanatı” yazdırmağa müvəffəq olmuşdu...

Qeyd edək ki, Elmar Vəliyev 2011-ci ildə Gəncə Şəhər İcra Hakimiyyəti başçısı təyin olunandan sonra hələ Yevlax rayonunda başçı olduğu vaxt tanıdığı Məharət Mustafayevin Gəncə şəhəri Nizami rayonunun icra başçısı təyin olunmasına nail olmuşdu. Məharət Mustafayev Nizaminin icra başçısı olarkən sadə vətəndaşları təhqir etməklə məşhurlaşmışdı.

Nəhayətdə o, RİH başçısı vəzifəsində çalışarkən Göygöl rayon bələdiyyəsinin sədri ilə torpaq üstündə əlbəyaxa dalaşıb, onu döymüşdü. Həmin vaxt onun barəsində araşdırma aparıldı və icra başçısı vəzifəsindən azad edildi. Lakin Elmar Vəliyev az sonra vazkeçilməz hesab etdiyi bu adamı Gəncə Şəhər Memarlıq və Şəhərsalma İdarəsinə rəis təyin etmişdi.

Yazıda adları keçən şəxslərin mövqeyini dərc etməyə hazırıq.

**❑ T.ƏHMƏDLİ,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 184 (7073) 1 sentyabr 2018

# Deputatdan beynəlxalq təşkilatlarla bağlı sərt çağırış

## Fəzail Ağamalı: "Rəngləri bulanmış inqilablara maliyyə ayırdılar"

**Bir zamanlar Azərbaycanda fəaliyyət göstərən çoxsaylı beynəlxalq qurumlar var idi. Onların bəziləri müxtəlif illərdə ya özləri, ya da hökumət fəaliyyətlərini dayandırdı. Xüsusilə 2014-cü ildən etibarən Azərbaycan iqtidarı ölkə daxilindəki QHT-lərə xaricdən ayrılan qrantlara qadağa qoyduqdan sonra bir-birinin ardınca beynəlxalq qurumlar sıradan çıxdılar.**

Amma bununla belə, hələ də ölkəmizdə mövcud olan belə qurumlar var. Lakin onların da fəaliyyətləri nəzərə çarpmır.

"Soros" Fondu, Milli Demokratiya İnstitutu kimi qurumların fəaliyyətinə son verilib. Həmçinin ATƏT-in Bakı ofisi bağlanıb. Eyni zamanda ölkəmizdə Avropa Şurası və ittifaqının daimi nümayəndəliyi, eləcə də, BMT-nin Azərbaycan nümayəndəliyi fəaliyyət göstərir. Avrasiya Əməkdaşlıq Fondu da Bakıda mövcuddur.

Bir faktı da qeyd edək ki, Azərbaycanda fəaliyyətləri tarixə keçən beynəlxalq qurumların özləri daha çox buna səbəb olublar. Onların zaman-zaman Azərbaycana qarşı apardıqları fəaliyyət bu cür sonluq gətirib.

Belə təşkilatların Azərbaycanda fəaliyyətlərinin olmamasının ölkənin xeyrinə, yaxud zərərinə olması barədə mövqelər birmənalı deyil.

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı "Yeni Müsavat"a bildirdi ki, beynəlxalq təşkilatların ölkəmizdə QHT-lərin çətiri altında qurumları fəaliyyət göstərirdi:** "Onlar əslində beynəlxalq təşkilat adı altında konkret dövlətlərin himayəsində olublar, onların xüsusi xidmət orqanlarının sifarişlərini və layihələrini həyata keçiriblər. Biz bunu zaman-zaman az görməmişik. Hələ 90-cı illərin əvvəllərindən başlayaraq haradasa 5-6 il öncəyə qədər bu təşkilatların Azərbaycanda fəaliyyətlərinin bütün tərəfləri özünü birmənalı şəkildə ifadə edib. Bəlli olub ki, əslində onlar beynəlxalq təşkilat adı altında, eyni zamanda insan haqları, demokratiya şüarları, düşüncələri ilə ölkəmizdə öz məqsədlərini həyata keçirmək üçün fəaliyyətə başlayıblar. Xatırlayırsınıza, bununla bağlı Amerikanın beynəlxalq statusda olan demokratiya və respublikaçılar institutları, "Soros" Fondu kimi qurumları öz fəaliyyətlərini ortalığa qoymuşdular. Zaman-zaman o da bəlli oldu ki, bunlar əslində Azərbaycanı koloniyaya çevirmək, ölkəmizi Amerika başda olmaqla, digər ölkələrin ciddi xarakter daşıyan layihələrinin yerinə yetirilməsi üçün öz səlahiyyətləri daxilində xidmət edirlər. Azərbaycan dövləti bütün bunların mahiyyətini olduğu kimi dərk edərək, onların ölkəmizdəki fəaliyyətinə son qoydu. Bunu çox doğru olaraq etdi. Artıq demokratiya və respublikaçılar institutları dünyanın heç bir yerində özünü bu və ya digər şəkildə ifadə etməkdə deyil. Əslində onlar 90-cı illərin əvvəllərində SSRİ dağılandan sonra mahiyyət etibarı ilə SSRİ məkanında ölkələrə nüfuz etmək, onları Amerikanın məqsədlərinə, strateji maraqlarına xidmət etmək üçün öz missiyalarını müəyyən mənada yerinə yetirdilər. 1998-ci ildə Demokratik Seçki Mərkəzi kimi onların bəzi şəxsləri ilə əməkdaşlımız oldu. Orada dərk edib gördüm ki, bunlar əslində demokratiya adı altında Azərbaycan xalqının iradəsini, onun seçimini nəzərə almadan "Amerika nə düşünürsə siz onu etməlisiniz" tapşırığı ilə ölkəmizə gəliblər. Onlar Azərbaycandan artıq gediblər. Sonradan "Soros" Fondu gəldi. Bu fond ABŞ-ın maraqlarına ölkələri tabe etmək üçün dünyada inqilablar həyata keçirməyi qarşısına məqsəd qoydu. Bunun nəticəsində Ukrayna, Gürcüstan kimi ölkələrdə rəngləri bulanmış inqilablara maliyyə ayırdılar. Son zamanlar isə məlum oldu ki, "Ərəb baharı" deyilən, dəhşətli hadisələrlə müşahidə olunan böyük faciələrin maliyyələşməsində "Soros" Fondu xüsusi bir yer alıb. Bütün bunlar sonunda fondun Azərbaycandan qovulmasına səbəb oldu. Bu da tamamilə doğru addım idi. Azərbaycan beynəlxalq təşkilatlar deyəndə dünya miqyasında tanınan, beynəlxalq təşkilat statusunda olan ölkələrlə əməkdaşlığa üstünlük verir. Bu BMT və onun ayrı-ayrı qurumlarıdır. Eyni zamanda Avropa Şurası, Parlamenti, ATƏT-in Parlament Assambleyası, ATƏT-in özü, NATO-nun Parlament Assambleyası, MDB Ölkələrinin Parlament Assambleyası, Qara Dəniz Ölkələrinin Parlament Assambleyası kimi qurumlarla da əməkdaşlığa böyük üstünlük veririk. Bu cür əməkdaşlıq Azərbaycan milli və dövlət maraqlarına ziyan gətirmədiyi həddə qədər davam edir. Əgər bu beynəlxalq təşkilatlar Azərbaycanın dövlət, milli maraqlarına, onun suverenliyinə, müstəqilliyinə xələl gətirən hər hansı bir addımlar atarlarsa, qətiyyən şübhə etmirəm ki, Azərbaycan həmin təşkilatlarla münasibətlərinə yenidən baxmaq məcburiyyətində qalacaq. Azərbaycan müstəqil dövlətdir. Milli və dövlət maraqlarımıza xidmət edən, Azərbaycana qərəzli münasibət bəsləməyən, ölkəmizə böhtan, iftiralar atmayan, təhdid etməyən, demokratiya və insan haqları adında təzyiqlər göstərməyən istənilən beynəlxalq təşkilatlarla yüksək səviyyədə əməkdaşlığa hər zaman hazır olduğumuzu bəyan etmişik. Mən bir millət vəkili olaraq bu seçimin ən qatı tərəfdarlarından biriyəm. Harada ki, Azərbaycanın milli, dövlət maraqları tapdalanırsa, suverenliyimizə təhlükə yaranırsa, biz dövlət, xalq, millət vəkili olaraq öz sərt mövqelərimizi ortalığa qoymalıyıq. Necə ki, bunu da hazırda edirik".



❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

# "İlqar Məmmədov müxalifət lideri olacaq" iddiasına reaksiyalar





## Natiq Cəfərli: "Bizim hədəf kütləmiz siyasətdə olan müxalifətçilər deyil"
## Əli Əliyev: "İlqar Məmmədovun üstün və zəif tərəflərinə bələdəm"

**İlqar Məmmədov həbsdən azad olunandan sonra onun sədrlik etdiyi REAL Partiyasının Azərbaycan siyasi səhnəsində necə rol oynayacağı, müxalifət düşərgəsinin öndə gedən təşkilatına çevrilib-çevrilməyəcəyi kimi məsələlər müzakirə mövzusudur. "REAL Partiyasının əsas müxalifət təşkilatına çevrilməsi mümkündürmü? Narazı elektoratı aktivləşdirmək və siyasi proseslərə qoşmağı bu təşkilat bacara biləcəkmi?" sualları aktual suallardır.**

**REAL Partiyası İdarə Heyətinin üzvü Natiq Cəfərli** "Yeni Müsavat"a bildirdi ki, müxalifətdə uğursuzluğun və ya davamlı uğurların olmamasının səbəbi hökumətin apardığı siyasətlə yanaşı, həm də bəzən müxalifət partiyalarının hamını qucaqlamağa çalışması idi. Halbuki bütün ölkədəki narazı elektoratın hamısını bir yerə toplamaq mümkün deyil. Çünki hər kəsin narazılığının səbəbləri müxtəlifdir: "REAL yaranan gündən bir bunu anladıq deyə, daha çox ideoloji üzərində, yeni bizim dəyərlərimizi bölüşən insanların birləşdirilməsi uğrunda mübarizə aparmağı qarşıya məqsəd qoyduq. Biz iddia eləmədik və eləmirik ki, ölkədə hamını bir araya gətirəcəyik, hamını qucaqlayacağıq, hamını REAL Partiyasının üzvü edəcəyik. Hamını partiya üzvü və tərəfdaşı etmək mümkün deyil. Biz dəyərlər çərçivəsində insanların bir amal uğrunda birləşməsinə çalışmışıq və bundan sonra da fəaliyyətimizi bu yöndə davam etdirəcəyik. Bizim hədəf kütləmiz həmişə bəlli olub-bu orta sinifdir, orta məmur və kiçik məmur təbəqəsidir, kiçik və orta biznesdə olanlar, gənclər, sağ mərkəzçi və cümhuriyyətçi dəyərlərə inanan insanlardır. Yəni bu insanların birliyini yaratmağa, REAL ətrafında birləşməyə çağırmışıq və bundan sonra da çağıracağıq. Biz heç də ona iddialı deyilik ki, cəmiyyətin bütün kəsimlərini, 10 milyonluq xalqı REAL-a üzv edək. Buna cəhd etsək, biz dəyərlər üzərində qurulmuş elektoratı itirə bilərik. Biz o narazı kütlənin maraqlarını ifadə edəcəyik ki, onlar parlamentarizm, cümhuriyyət dəyərlərinə əsaslanan ölkə qurmaq istəyirlər. Bizim əsas hədəfimiz Azərbaycanda parlamentar respublikanın qurulmasıdır. Seçkinin və qanunun yaratdığı bütün vasitələrdən istifadə edərək bu dəyərlərin oturuşmasına çalışacağıq. Bizim hədəfimiz hökumətin və sistemin dəyişdirilməsidir, müxalifətin dəyişdirilməsi və REAL-ın müxalifətin birincisi olması deyil. Əhalinin təqribən 90 faizi pessimistləşib və siyasətə qarışmaq istəmir. Bizim hədəf kütləmiz siyasətdə olan müxalifətçilər yox, məhz o 90 faizdir. Ona görə də REAL müxalifətin birincisi yox, ölkədə birinci olmaq uğrunda çalışacaq".

**Bir zamanlar REAL sədri İlqar Məmmədovla eyni partiyanın rəhbərliyində təmsil olunan VİP sədri Əli Əliyev isə dedi ki, ən yaxşı hakim zamandır. REAL Partiyasının necə olacağını, nə edə biləcəyini gözləmək lazımdır:** "Azərbaycandakı siyasi nəticəsizliyin səbəbi lider məsələsi deyil, hakimiyyətin siyasətidir. Siyasi rəqabət intellekt və şüarlarla həll edilir, problem buradadır. Bu halda yalnız güc müstəvisində iqtidara qalib gəlmək mümkün görünür. Bildiyim qədər REAL da demokratik yolla mübarizə aparmağı qarşısına məqsəd qoyub. Ona görə də iqtidarın yumşalmasını gözləməli, yaxud iqtidarın diktə etdiyi qanunsuz müstəvidə güc toplamalıdırlar. Bu versiyanı az ehtimallı görürəm.

Həqiqətən də İlqar Məmmədovu kifayət qədər yaxşı tanıyıram. Onun üstün və zəif tərəflərinə bələdəm. Son hadisələr onun siyasi baxımdan prinsipiallığını, mübarizliyini ortaya qoydu. Sınaqdan başıdik çıxa bildi. Şəksiz, bunlar REAL sədrinin üstünlükləridir. Mən Azərbaycan siyasi bomondunun hər bir nümayəndəsini yaxından tanıyıram. Siyasi bacarıq və təcrübəsinə, liderlik keyfiyyətlərinə görə üstün şəxsləri də tanıyıram. Ola bilər, kimsə mövqeyimi mübahisələndirsin, bu mənim gəldiyim qənaətdir. Bir də REAL liberal kəsimə iddialıdır. Azərbaycanda millətçi və dini kəsimlər, bir sıra hallarda onların İttifaqını nəzərdə tutan platformalara da rast gəlinir. Fikrimcə, sonra söylədiyim cərəyanların şansı liberal seqmentdən üstündür. Çünki demokratiyadan uzaq cəmiyyətləri liberal kəsim dəyişə bilmir. Belə praktika rastıma çıxmayıb.

Azərbaycandakı vəziyyət isə bir qədər də fərqlidir. Burada ayrı-ayrı lider, siyasi təşkilat, siyasi cərəyanların uğurunu, ümumiyyətlə, görmürəm. Mənə görə, Azərbaycanda bu məfhum və reallıqları bir araya gətirəcək hərəkata zərurət var. Əks halda, heç kəs ayrılıqda bu iqtidara güc gələ bilməyəcək".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# “Mənim fəaliyyətimi də tənqid edirlər, bu, normaldır”

## **Hikmət Hacıyev:** “Azərbaycanın ən böyük güzəşti ondan ibarətdir ki, 25 ildən artıq dövr ərzində işğalçı Ermənistanla danışıqları davam etdirir”

**“Baxış bucağı”**

**Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev “Yeni Müsavat”ın suallarına cavab verib. Diplomatla Qarabağ məsələsinin həlli istiqamətindəki son durumdan, işğalçı ölkənin təxribatçı hərəkətlərindən və digər məsələlərdən danışmışıq.**

***- Hikmət bəy, Avropa Parlamentinin bir qrup üzvü bu günlərdə yenidən işğal altındakı ərazilərimizdə peyda oldu. Beynəlxalq təşkilatın təmsilçilərinin Azərbaycan qanunlarını pozmasına rəsmi Bakının münasibəti necədir?***

- Bu səfəri təşkil edən erməni lobbisinin Kaspar Karapetyan adlı Brüsseldəki rəhbəridir. Azərbaycana qarşı həyata keçirdiyi fəaliyyəti ilə əlaqədar olaraq onun barəsində cinayət işi də açılıb. Səfəri təşkil olunan şəxsə gəldikdə, bunu həqiqətən siyasi təlxək adlandırmaq olar. Belə ki, həmin şəxs yalnız özündən ibarət olan partiyanın rəhbəridir. Hətta görün bu adam nə qədər qeyri-ciddi birisidir ki, parlamentdə Avropa İttifaqı ilə əlaqədar müzakirə olunan məsələlərdə bir gün qərarların lehinə, növbəti gün əleyhinə səs verir. Bu, onun özünün bəyanatıdır. Deməli, bu, o adamın iş prinsipidir. Təcrübə göstərir ki, Azərbaycan tərəfindən həyata keçirilən fəaliyyətin, maarifləndirmə işinin düzgün qurulması nəticəsində ciddi siyasətçilər və ictimai-siyasi xadimlər Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərlərdən çəkinirlər. Ona görə də Karapetyan kimi erməni lobbi rəhbərləri çıxılmaz vəziyyətdə qalaraq bu kimi təlxəklərə və klounlara müraciət edirlər. Bundan əvvəl də başqa bir klounun işğal olunmuş ərazilərə səfəri təşkil olunmuşdu. Onlar bu kimi cılız insanlar vasitəsilə işğal olunmuş ərazilərimizə guya qanunsuz səfərlərin sayının artması fonunu yaratmaq istəyirlər.

***- Amma fakt budur ki, beynəlxalq təşkilatın təmsilçiləri qanunsuz olaraq işğal zonasına səfərlər edir, bəyanatlar verirlər, bildirirlər ki, daha böyük heyətlə bu ərazilərə səfər edəcəklər. Bununla da Qarabağa səfərləri adiləşdirməyə çalışırlar. Bu, təhlükəli tendensiyaya çevrilə bilərmi? Belə demək mümkündürmü ki, rəsmi Bakının “qara siyahı”sı effektli rol oynaya bilmir və digər təsir rıçaqlarından istifadə etmək lazımdır?***

- Ümumiyyətlə, Azərbaycanın istifadə etdiyi vasitələr təkcə “arzuolunmaz şəxslər” siyahısı deyil. Burada geniş miqyasda, diplomatik nümayəndəliklərimiz tərəfindən maarifləndirmə işi də aparılır. Əksər ölkələrin xarici işlər nazirliklərinin səyahət tövsiyələrində Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərlərdən çəkinmək barədə məqamlar və xəbərdarlıqlar yerləşdirilib. Onlar öz vətəndaşlarına tövsiyə edirlər ki, Azərbaycanın işğal olunmuş ərazilərinə səfər etməyin. Əks təqdirdə, siz təqib xarakterli addımlarla üzləşmiş olarsınız və eyni zamanda bu, Azərbaycan qanunlarının pozulmasıdır. Görünən tendensiya ondan ibarətdir ki, işğal olunmuş ərazilərimizə qanunsuz səfərlərin və xüsusən də ciddi siyasətçilər tərəfindən edilən səfərlərin kəskin şəkildə azalmasını görən erməni lobbi dairələri bütün resurslarını səfərbər edərək, hətta təlxəklərə və siyasi klounlara müraciət edərək, işğal altındakı ərazilərə səfərlərin artması mühitini yaratmağa çalışırlar.

***- Müşahidələr ümidverici qənaətə gəlməyə əsas vermir. Qarabağla bağlı hazırkı situasiya sizə nə deyir: Azərbaycan və Ermənistan arasında yenidən silahlar işə düşəcək, yoxsa danışıqların davamı gözlənilir?***

- Münaqişənin sülh yolu ilə həlli üçün resurslar tükənməyib. Yəni biz bu qənaətdəyik. Münaqişənin həlli prinsipləri də, həlletmə yolları da artıq hər kəsə çox yaxşı bəllidir. Danışıqlar prosesinin də ana qayəsini məhz bu xətt təşkil edir. Ona görə xüsusən də BMT Baş Assambleyasının qarşıdakı sessiyası çərçivəsində Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə növbəti görüşü nəzərdə tutulub və bu görüşdə yenə də məsələlər bir daha müzakirə olunacaq. Azərbaycan BMT nizamnaməsi ilə təsbit edilmiş ayrılmaz hüququnu özündə saxlayır. Bu hüquq da ondan ibarətdir ki, Azərbaycan bütün imkanlardan istifadə edərək özünün beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini təmin edəcək.

***- BMT Baş Assambleyasında Azərbaycanın işğal altındakı əraziləri ilə bağlı sənədin müzakirəyə çıxarılması nə vəd edir?***

- Ümumiyyətlə, BMT Baş Assambleyasında daim Azərbaycan tərəfdən belə bir gündəlik maddə salınıb, bu, davamlı xarakter daşıyır. “Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət” adlı gündəlik maddə var və bu da nəticə etibarilə il ərzində həmin məsələnin müzakirəsi üçün fürsətlər yaradır.

***- Təxmin edək ki, BMT-də Azərbaycanın xeyrinə olan daha bir sənəd qəbul olundu, bu, nəyi dəyişəcək? Fakt budur ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi masa üzərində qalıb. Bakı qətnamələrin icrasını tələb edə bilməzmi?***

- Azərbaycan hər bir fürsətdə, irəli sürülən hər bir qətnamədə münaqişənin həllinin fundamental əsası kimi BMT Təhlükəsizlik Şurasının qətnamələrini vurğulayır. Məhz BMT Təhlükəsizlik Şurasının qətnamələri bu gün ATƏT-in Minsk Qrupunun həmsədrlərinin fəaliyyətinin əsasını və onun mandatını təşkil edir. Ona görə də münaqişənin həllinin beynəlxalq hüquqi, siyasi və beynəlxalq humanitar hüquqi əsaslarını məhz BMT Təhlükəsizlik Şurasının qətnamələri təşkil edir ki, Azərbaycan da hər bir fürsətdə bu məqamı qaldırır. Yanaşmamız ondan ibarətdir ki, Azərbaycan bütün beynəlxalq hüquqi vasitələrdən istifadə edərək münaqişənin həlli ilə əlaqədar ölkəmizin mövqeyinin gücləndirilməsi istiqamətində addımlar atır. Hesab edirik ki, hər bir fürsətdə, beynəlxalq səviyyədə qəbul olunmuş qərar və qətnamələr bu mövqeyimizi daha da gücləndirir.

***- Ermənistanın baş nazirinin konstruktiv olacağı ilə bağlı artıq heç kimdə ümid qalmadı. Xüsusilə də onun oğlunu Qarabağa hərbi xidmətə göndərməsi, radikal bəyanatları, bu günlərdə Xocalı aeroportuna nümayişkaranə şəkildə enməsi ondan xəbər verir ki, erməni baş nazir sələfləri kimi, nə BMT qətnamələrini saya salır, nə də Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində addım atmaq niyyətində deyil. Bundan sonrakı danışıqların bir mənası qalırmı?***

- Ermənistan tərəfindən hazırda müxtəlif təxribat xarakterli addımlar atılır. Qeyd etdiyiniz məqamları da Ermənistanın növbəti təxribatçı addımları kimi qiymətləndiririk. Bunlar danışıqların irəli getməsi, münaqişənin həlli və ən vacibi ədalətli sülhün təmin olunmasına xidmət edən addımlar deyil. Biz istər Paşinyan hökuməti, istərsə də əvvəlki hökumətin addımlarında hər bir fürsətdə vəziyyətin gərginləşməsinə xidmət edən addımların atıldığının dəfələrlə şahidi olmuşuq. Ümumiyyətlə, Ermənistanın yürütdüyü siyasətin nəticəsidir ki, bu münaqişə həll olunmur. Azərbaycan hər bir fürsətdə deyib ki, danışıqlar sonsuza qədər davam edə bilməz və Azərbaycanın səbrinin həddi var. Azərbaycanın ən böyük güzəşti ondan ibarətdir ki, 25 ildən artıq dövr ərzində işğalçı Ermənistanla danışıqları davam etdirir. Ona görə də danışıqları davam etdirməklə, sülhpərvər niyyətini göstərməklə bərabər, Azərbaycan tərəfi həmişə öz mövqeyini bəyan edir ki, özünün ərazi bütövlüyünü təmin etmək üçün BMT nizamnaməsində təsbit edilmiş hüquqlarından da istifadə etmək haqqını hər zaman özündə saxlayır.

***- Ermənistan hakimiyyətinin bəzi davranışları və təxribatlarını yuxarıda sadaladım. Üstəlik, Ermənistan polisi Qarabağa xidmətə göndərilir. İşğalçı ölkə daha nə etməlidir ki, Azərbaycan Ermənistanın danışıqlar yolu ilə torpaqları qaytarmayacağına inansın və qəti qərarını versin?***

- Dediyim kimi, Ermənistan tərəfindən təxribatçı addımlar atılır. Qeyd etdiyiniz məqamlar da qəsdən vəziyyətin gərginləşdirilməsinə, ümumi gərginlik fonu yaradaraq danışıqların irəli getməsinə mane olan addımlardır. Azərbaycan tərəfi ona görə də beynəlxalq vasitələrdən istifadə edir. Rəsmi Bakı beynəlxalq ictimaiyyətin də lazımi formada məlumatlandırılmasını təmin edir ki, hər kəs məsuliyyətin hər bir halda Ermənistan Respublikasının üzərinə düşdüyünü bilsin.

***- Sizə elə gəlmirmi ki, artıq kifayət qədər faktlar, dəlil-sübutlar var, Ermənistanın bundan artıq ifşa etməyə gərək yoxdur?***

- Mən sizinlə razıyam. Ermənistan işğalçı və təcavüzkar dövlətdir, hər hansı başqa dəlilə ehtiyac yoxdur. Yəni onun işğalçılığı, təcavüzkarlığını və insanlıq əleyhinə cinayətlər törətməsi göz qarşısındadır. Amma təbii ki, Azərbaycan Respublikası yenə də beynəlxalq hüququn aliliyinə hörmət edən və beynəlxalq hüququn aliliyinin təmin edilməsinə inamını nümayiş etdirən bir dövlət kimi beynəlxalq hüquqi və sivil vasitələrdən istifadə edərək, bu işğal faktının sona çatdırılması və özünün ərazi bütövlüyünün məhz bu vasitələrlə təmin olunması siyasətini həyata keçirir. Amma bu, heç bir halda Azərbaycanı öz hüququndan da məhrum etmir. Azərbaycan BMT nizamnaməsi ilə təsbit olunmuş özünün müdafiə hüququndan da hər zaman istifadə edərək, ərazi bütövlüyünü və suverenliyini təmin edə bilər.

***- Ermənistana qarşı hərbi əməliyyatlara başlanılmamasının əsas səbəblərindən biri kimi Rusiya amili vurğulanır. Amma müşahidələr göstərir ki, Bakı ilə Moskva, həmçinin iki qonşu dövlət başçılarının arasındakı münasibətlər kifayət qədər normaldır, əksinə, Paşinyanın gəlişindən sonra Moskva-İrəvan münasibətlərində çat yaranıb. Bu vəziyyət Qarabağın azad olunması üçün şans yaradırmı? Sizcə, Rusiya Ermənistan-Azərbaycan hərbi qarşıdurmasında hansı mövqe tuta bilər?***

- Mən bilavasitə Rusiyanın adından danışa bilmərəm. Amma o fikrinizlə razıyam ki, Azərbaycanla Rusiya Federasiyası arasında dostluq və tərəfdaşlıq münasibətləri var. Bu dostluq və tərəfdaşlıq münasibətləri ali səviyyəli siyasi dialoqla və qarşılıqlı səfərlərlə daha da möhkəmlənir. Rusiya Federasiyası da ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrindən biridir. Sadəcə olaraq, bizim bütün həmsədrlərdən gözləntimiz ondan ibarətdir ki, səylər daha da artırılsın, məhz Təhlükəsizlik Şurasının daimi üzvləri kimi, həmsədrlər tərəfindən qəbul edilmiş BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası təmin olunsun.

***- Almaniya kansleri xanım Merkel ölkəsinin Qarabağ tənzimlənməsində iştirak etmək niyyətini açıqlamışdı, amma Rusiyadan dolayısı ilə mənfi reaksiya gəldi. Bakının bu yanaşmaya münasibəti necədir?***

- Rusiya tərəfinin verdiyi açıqlama ilə tanış deyiləm. Amma Almaniya Minsk Qrupuna üzv ölkələrdən biridir. Yəni Minsk Qrupunda 11 ölkə təmsil olunur, həmsədrlik institutunda isə 3 ölkədir. Ümumiyyətlə, Minsk Qrupundakı bütün ölkələrin fəallıq göstərərək, Minsk Qrupunun həmsədrləri tərəfindən irəli sürülən təşəbbüslərin həyata keçirilməsinə öz töhfələrini vermələri müsbət olardı ki, nəhayət, bu münaqişənin həllində irəliləyiş əldə olunsun. O halda beynəlxalq ictimaiyyətin də öhdəliyi və gözləntisi təmin olunardı. O mənada ki, işğal faktına son qoyulardı.

***- Hikmət bəy, iki keçmiş Azərbaycan vətəndaşları Robert Köçəryanla Serj Sərkisyanın Xocalı soyqırımı və digər hərbi cinayətlərə görə mühakimə olunması istiqamətində hansısa addımlar atılırmı? Bu, mümkündürmü?***

- Ermənistanda cərəyan edən proseslər tərəfimizdən yaxından izlənilir. Perspektivdə belə bir imkanlar istisna olunmur. Ermənistanın daxili siyasətində ziddiyyətli proseslər cərəyan etməkdədir və biz o prosesləri yaxından izləyirik.

***- Bəzən Azərbaycan XİN-in, onun rəhbərliyinin fəaliyyəti ilə bağlı mediada, həmçinin sosial şəbəkələrdə tənqidlər səslənir. Bu barədə nə deyə bilərsiniz?***

- Bu barədə onu deyə bilərəm ki, dövlət başçımızın tərəfindən də dəfələrlə qeyd edildiyi kimi, prezidentin rəhbərliyi altında həyata keçirilən Azərbaycanın uğurlu xarici siyasəti var. Xarici İşlər Nazirliyi də öz gündəlik fəaliyyətində dövlət başçısı tərəfindən qoyulan vəzifə və tapşırıqların həyata keçirilməsinə xidmət edir. O ki qaldı tənqidi fikirlərə, Azərbaycan Respublikası azad cəmiyyətdir, ölkəmizdə media azadlığı, fikir azadlığı tam şəkildə təmin olunub. Hər kəs öz fikrini sərbəst şəkildə ifadə etməkdə tamamilə azaddır. Biz də konstruktiv xarakterli tənqidi fikirlərə hörmətlə yanaşırıq. O cümlədən mənim özümün fəaliyyətimi də tənqid edirlər, bu da normaldır. Hər bir demokratik, açıq ölkədə tənqid faktının olmasını normal qəbul edirik. Amma təhqir hallarına yol verməmək lazım deyil. Bir də tənqidi məqamlar subyektiv xarakter daşımamalı, sırf faktlara əsaslanmalıdır.



**“Danışıqlar sonsuza qədər davam edə bilməz və Azərbaycanın səbrinin həddi var”**

**“Rusiyanın adından danışa bilmərəm, amma o fikrinizlə razıyam ki, Azərbaycanla Rusiya Federasiyası arasında dostluq və tərəfdaşlıq münasibətləri var”**

**Elşad PAŞASOY,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 184 (7073) 1 sentyabr 2018



# Vəsiqəmiz də gəldi

Zamin HACI
zaminhaci@gmail.com

**"Yaxşı huri, qılman - belə şeylər var. Belə kef! Özü də ayrı adamları ora qoymazlar, biz ağanın səbəbinə gedəcəyik, ya özü aparacaq, ya qəbz verəcək... Bax, heç kəsə demə ha!"**

(Yusif Vəzir Çəmənzəminli, "Cənnətin qəbzi" hekayəsindən, 1909-cu il)

Sentyabrın 1-i sovet hesabıyla bilik günü sayılırdı, qabaqlar biz məktəbə bu gün başlayardıq, o üzdən bugünkü köşəmizə təhsil tərəfdən girək. *(Hərçənd yaşlı adamların yadında olar, biz elə o zamanlar da 1 sentyabrda məktəb üzünü nadir hallarda görərdik. Sovet hökuməti adətən sentyabr-oktyabr aylarında şagirdləri, tələbələri, müəllimləri məhsul yığımına basardı. Kütləvi şəkildə, elliklə. Kəndliyə pul verməyin dərdindən bu cür qul əməyindən yararlanırdılar. Biz bir müddət üzüm, pambıq, kartof, şəkər çuğunduru, canım sənə desin, tütün, fındıq, qoz, əzgil və sairə toplayırdıq, sonra yorğun-arğın məktəbə dönüb guya oxumağa davam edirdik. Sovet dağılandan sonra da bir neçə il dövlət çevrilişləri, mitinqlər, müharibə-filan üzündən dərslərin başlanması ancaq noyabrda mümkün olurdu).*

Dünən bir xəbər gördüm, ürəyim dağa döndü: təhsil idarəmizin qərarı ilə Bakıda bir məktəbi ləğv eləyib, idman məktəbi yaradıblar. Çox sevindim, çünki mən dəfələrlə təklif etmişəm, bizdə məktəblər lazımsız idarələrdir, uşaqların başını xarab eləməkdən, valideynlərə yalançı ümidlər verməkdən başqa heç zada yaramır, hamısını bağlayıb, idman məktəbi etməliyik. Özü də bu idman məktəbləri qol-qıç sındırmaq, ağız-burun əzmək, adamı götürüb yerə çırpmaq, nə bilim, yumurtalarını partlatmaq və sairə istiqamətində açılmalıdır. Çünki idmanın növləri çoxdur. Misal üçün, biri var, körlinq adında. Daşı buzun üstündə sürüşdürürsən, qabağıyca da iki nəfər süpürgə çalır. Bizə bu lazımdırmı? Yenə bu idmanı öyrənən gedib küçə süpürsə, maşın altında qalsa bəlkə dövlətçiliyimizə xeyri olardı. Yaxud, ən bambılı idman növləri intellektual idmanlardır. Bunlardan saya bilərik nərd, dəmino, loto, beşdaş, eşşəkbeli və şahmatı. Şahmat oyunçuları ümumiyyətlə əfəl olur, ciblərində siçanlar oynayır, bütün günü ağıçı arvadlar kimi sinə döyürlər. Biz idmanı öyrənirik ki, kimisə tutub döyüb pulunu alaq, bu şahmatçılar isə pul dilənirlər. Ayıb olsun. Ermənipərəst Kasparovdan bizə yaxşı irs qalmazdı ki...

Ancaq hər bir islahatı sevməyən ekstremist ünsürlər də olur, zənnimcə, əlaqədar dövlət orqanlarının vəzifə borcudur həmin şəxsləri vaxtında aşkar edib yerindəcə məhv etsinlər. Məktəbin yerində idman məktəbinin qayırılmasına etiraz edənlərin məktubunu gördük, onu 35 müəllim imzalamışdı, hamısı da zənən xeylağı! Dəhşətdir. Təsəvvür edin, məktəbdə damazlıq bir kişi müəllim yoxdur. Biz bununla hara gedirik? Təhsilimiz tamamilə qadınlaşır, feministləşir. Məncə bunun qarşısını almalıyıq. Dövlət tədbir görməlidir, kişilərdə müəllim sənətinə maraq oyatmalıdır. Örnək üçün, bu il ali məktəblərə qəbulda maraqlı yenilik gördük: bəzi atalar və analar öz uşaqlarına qoşulub tələbə olmuşdular. Eyni formada ailə podratı üsuluyla məktəblər açа bilmərikmi? Qoy qadın müəllimin həyat yoldaşı (əri) da dərs demək hüququ əldə etsin. Nənə və baba birgə oxusunlar. Uşaqlar əmi-dayı tərbiyəsi görsün. Kirvə uşaq qucağında birinci sinifə getsin və sairə. Nazirlik istəsə bu istiqamətdə təkliflərimi konseptual formada, metodiki, pedoqiki, feto... (yox, bu indiki halda məsləhət deyil) məzmunda hazırlayıb təqdim edərəm. Dövlətçiliyə canımız qurban.

Bax, dünən o təzə şəxsiyyət vəsiqəsinin hazırlandığını görəndə də xeyli sevindim. Əla sənəddir, daha geriyə yol yoxdur, bu vəsiqənin üzərində haqqımızdakı bütün məlumatlar əksini tapacaqdır. Barmaq izi, gözün şəkli, qanda spirtin, damarda tiryəkin, qaraciyərdə serrozun, dalaqda trombositlərin miqdarı, hansı şadlıq sarayında bildirçin yemisən, kimin toyuğuna kiş demisən, uşaq vaxtı yerinə kiçik ehtiyacını ödəmisənmi, böyük vaxtı feysburuqda kimi layk eləmisən, xaricdə qahımların, daxildə paxılların vardırmı, raykomun evinə baxanda köks ötürür, uçaskovi haqda pis fikirləşərkən qızarırsanmı və sairə - bütün məlumatlar bu şəxsiyyət vəsiqəsində elektron çipdə yerləşəcəkdir.

Yaxşı olardı vəsiqənin nömrəsini qolumuza tatu kimi yazsınlar. Xərci çox olsa dəmiri qızdırıb basmaq olar. Çünki hələ vətəndaş o qədər məsuliyyətli deyil, hökumətdən geri qalır və bəzən görürsən vəsiqəni itiribdir. Öyrəşənə, şəxsiyyət olanacan müəyyən vaxt keçməlidir.



# ABŞ-ın riskli dünya siyasəti - bütün cəbhələrdə savaş açıb...

## Politoloq: "Proseslərdə Azərbaycan üçün də narahatedici məqamlar var"

**ABŞ "dünyada tək güc" olmaq uğrunda demək olar ki, bütün cəbhələrdə mübarizə aparır. Onun bu siyasi gedişləri bir zamanlar müttəfiqləri olmuş ölkələrin də tənqidinə səbəb olur. Lakin ABŞ öz siyasətində dəyişiklik etməyib, xüsusilə də Türkiyə, Rusiya, İrana qarşı yeni sanksiyalar tətbiq edir. Əsas rəqibi Rusiyaya qarşı həm MDB məkanında, həm də Yaxın Şərqdə müxtəlif siyasi gedişlər aparır. Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova avqustun 30-da keçirdiyi mətbuat konfransında deyib ki, ABŞ 24 saat içində Suriyaya hücum edəcək:**

"ABŞ və müttəfiqlərinin Yaxın Şərqdə 380 raket və hər biri 28 "Tomahavk" raketi daşıyan Karni və Ross gəmiləri var. ABŞ Aralıq dənizindəki digər döyüş gəmilərini də hücuma dəstək vermək üçün qısa müddətdə Suriya sahillərinə yaxınlaşdıra bilər", - deyə Zaxarova bildirib.

Türkiyə ilə də ABŞ arasındakı F-35 problemi davam edir. Bu barədə danışan Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib ki, F-35-lər bizə verilməlidir:

"Amma dünya tək ölkədən ibarət deyil. Onlar verməsələr, biz başqa ölkədən bunu tədarük edərik və ya özümüz istehsal edərik", - Ərdoğan bildirib.

**"Yeni Müsavat"a danışan politoloq Mübariz Əhmədoğlu bildirib ki, Mayk Pompeo və Con Bolton vəzifəyə gətirildikdən sonra Trampın siyasəti dəyişdi:**

"Ümumilikdə ABŞ-ın siyasəti daha ciddi görünür. Tramp deyir ki, bu proseslərə çıxılmaz vəziyyətdə qaldığı üçün başlayıb. Məsələn, Çinlə bağlı bildirir ki, 25 ildir Çin iqtisadi baxımdan Amerikadan önə keçib və bununla kimsə məşğul olmayıb. Yaxud da deyir ki, Ağ Evdə kabinetinə girən zaman müzakirə edirdilər ki, İran nə zaman Yaxın Şərqi zəbt edəcək. Söyləyir ki, indi mən İranı dayandıra bilmişəm. Bu prizmadan baxanda ABŞ-ın indiki siyasətində müəyyən ciddilik var. Ancaq ABŞ-ın Rusiyaya qarşı siyasətini, digər dövlətlərə qarşı olan siyasətlərindən tamamilə ayırmaq lazımdır. Konkret olaraq Trampın Rusiya ilə siyasətini idarə edən onun ölkədən qorxusudur. Tramp hazırda qorxur ki, Rusiya Amerikanın daxilində həm konqres seçkiləri zamanı, həm də sonrakı prezident seçkilərində öz müdaxiləsini edər. Putinin belə bir müdaxiləsi isə bu dəfə demokratların faydasına olacaq və imkan verməyəcək ki, Tramp seçkidən qalib çıxsın. Ona görə də Trampın Rusiya ilə siyasətini elmi-politoloji əsasda axtarmaq lazım deyil".

**Politoloq bildirib ki, Yaxın Şərqdəki proseslərdə Trampın ən böyük səhvi Türkiyə ilə münasibətlərindədir:** "Əslində Türkiyə-ABŞ münasibətlərini indiki vəziyyətə gətirib çıxaran elə ABŞ-ın özü olub. Obamanın da dövründə ABŞ-ın Türkiyəyə qarşı kürd məsələsindəki münasibəti düzgün deyildi. Tramp isə bu münasibəti daha da kəskinləşdirdi və Ərdoğanda inanmaq üçün əsas yeri qoymadı. Ərdoğan ABŞ-ın qarşısında özünü müdafiə etmək üçün ölçülü və ölçüsüz addımlar atdı. Ona görə də hesab edirəm ki, Trampın Yaxın Şərq siyasəti ancaq xaosla bitə bilər. Çünki Səudiyyə Ərəbistanı öz həcminə görə ABŞ-ın Yaxın Şərqdəki siyasətinin daşıyıcısı ola bilməz. Belə daşıyıcı ancaq Türkiyə ola bilərdi. Ən azından Türkiyənin imic, yumşaq güc faktoru Yaxın Şərqdə çox böyük sabitləşdirici rol oynayırdı. Hesab edirəm ki, ilk növbədə əgər ABŞ özü də nəzəri cəhətdən qəbul etsə ki, İrana qarşı müharibə aparmayacaq, o halda da öz funksiyasını Səudiyyə Ərəbistanına verəcək. Diqqət edək, ABŞ Suriyadan çəkilən zaman Səudiyyə Ərəbistanı bildirdi ki, Suriyada bərpa proseslərində Birləşmiş Ştatların əvəzindən iştirak edəcək. Eyni zamanda ABŞ-ın dayandırdığı maliyyə yardımını da təmin edəcəyini açıqladı. Bu baxımdan Səudiyyə Ərəbistanı İrana qarşı da ABŞ siyasətinin daşıyıcısı ola bilər. Maraqlıdır ki, bu yaxınlarda Səudiyyə Ərəbistanı Yəməndə Babəl-Məndəb boğazını öz nəzarəti altına aldı. Bilirik ki, Yəmən İranın təsiri altındadır. Eləcə də İsrail də İrana təsir etdi ki, Babəl-Məndəbdən çəkilsin, yolları bloklamasın. Yəni ABŞ-ın siyasətində ciddiləşmə artdıqca, Yaxın Şərqdə xaosun davam etməsi ehtimalı da artır. Ola bilər ki, İsrail də Suriyada təhlükəsizlik üçün ayırdığı qüvvələri İrana qarşı göndərsin. Ermənistan da bu planda iştirak edir. Yaxınlarda İsrailin xarici işlər nazirinin baş direktorunun müavini Ermənistanda oldu. O, belə bir tezis ortaya qoydu ki, siz bizdən "erməni soyqırımı"nı tanımağı tələb etməyin, biz də sizdən Holokostun tanınmağını tələb etməyəcəyik. Əsas məsələ kimi İrana qarşı birgə fəaliyyət qabardıldı. Bu da ehtimal ki, ABŞ-la razılaşdırılmış məsələ idi. Hər halda, gedən proseslərdə Azərbaycan üçün də risk var. Ölkə prezidentinin hazırda atdığı addımlar, xüsusilə də Rusiyada keçirəcəyi görüşlər hesab edirəm ki, əsasən regional, ümumilikdə təhlükəsizlik məsələlərinə aid olacaq. Hadisələr gərginləşsə, hesab edirəm ki, Ermənistanın dövlət kimi sıradan çıxma riski çox artacaq".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**



# Tramp KXDR-ə dözümlü münasibət göstərməyə hazırdır

**ABŞ prezidenti Donald Tramp Vaşinqtonun iddiasına görə hələ ki nüvəsizləşdirmə istiqamətində yetərli addım atmayan KXDR-ə qarşı dözümlü münasibət göstərməyə hazırdır.**

AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, Donald Tramp bunu Bloomberg agentliyinə müsahibəsində bildirib.

Müsahibəsində dünyada istənilən şəxsdən daha çox səbirli olduğunu deyən ABŞ prezidenti Pxenyana qarşı da dözümlülük nümayiş etdirməyə hazır olduğunu vurğulayıb. O, Şimali Koreya lideri Kim Çen Inla indiyə qədər də yaxşı münasibətlər saxladığını qeyd edib, həmçinin Sinqapurda keçirilən müştərək sammitdən sonra Pxenyanın nüvə-raket sınağı keçirmədiyini və əsirlikdə saxlanan Amerika vətəndaşlarını azadlığa buraxdığını xatırladıb.

Bir qədər əvvəl Donald Tramp dövlət katibi Maykl Pompeoya Vaşinqtonun Koreya yarımadasının nüvəsizləşdirilməsi üzrə yetərli irəliləyişi görmədiyi üçün KXDR-ə səfərini ləğv etməyi tapşırmışdı.

Qeyd edək ki, ABŞ və KXDR arasında iyunun 12-də Sinqapurda keçirilən ilk sammitin yekunlarına əsasən, Donald Tramp və Kim Çen In müştərək bəyanatla çıxış etmişdilər. Bəyanatda Pxenyan Koreya yarımadasının tam nüvəsizləşdirilməsinə hazır olduğunu, ABŞ isə bunun əvəzində KXDR-ə təhlükəsizlik zəmanəti verəcəyini bildirmişdi.

**Ermənistanın keçmiş prezidenti Robert Köçəryan növbədənkənar parlament seçkilərində iştirak etmək niyyətindədir. O, bu barədə Ermənistanda "Sputnik"ə müsahibəsində deyib. R.Köçəryan deyib ki, əgər mən siyasətə qayıtdığımı elan edirəmsə, onda müvafiq olaraq, bu seçkilərdə iştirak edəcəyəm. Seçkilərdə iştirakın formatına gəlincə, Robert Köçəryan müzakirə üçün hələ kifayət qədər vaxtın olduğunu vurğulayıb: "Vəziyyət çox sürətlə inkişaf edir. Və düşünürəm ki, formatla bağlı sualı açıq saxlamaq lazımdır. Ermənistan vətəndaşlarına populist şüarlar və adamlar lazım deyil".**

# Putin İrəvandakı adamını göstərdi-Köçəryana zəngin pərdəarxası

## Ermənistanda Rusiya-ABŞ qarşıdurması başlayır



Robert Köçəryan

Eks-prezident hesab edir ki, indiki şəraitdə müxalifət mərkəzlərindən və ya qütblərindən biri ola bilər. Köçəryan hələ bilmir ki, hansı siyasi partiyaları "siyasi döyüşlərdə" onu dəstəkləyəcək. Bu zaman eks-prezident Respublika Partiyası və "Çiçəklənən Ermənistan" Partiyasına ümid bəsləyir: "Amma mən ilk növbədə öz gücümə, eləcə də vətəndaşların mənim ətrafımda birləşəcəyinə inanıram".

Köçəryanın bu açıqlamasının ardınca Rusiya prezidenti Vladimir Putinin ona zəng edərək ad günü münasibətilə təbrik etdiyi barədə xəbər yayılıb. Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, bu barədə Rusiya dövlət başçısının rəsmi saytı məlumat yayıb.

"Telefon danışığı zamanı Vladimir Putin Ermənistanın ikinci prezidenti Robert Köçəryanla səmimi söhbət aparıb və onun ad gününü təbrik edib", - məlumatda deyilir.

Qeyd edək ki, avqustun 31-də R.Köçəryanın 65 yaşı tamam olub. O, 30 mart 1998-ci ildən 9 aprel 2008-ci ilə qədər Ermənistan prezidenti vəzifəsində çalışıb. Qarabağ müharibəsində erməni silahlı birləşmələrinə rəhbərlik edən, dinc azərbaycanlı əhaliyə qarşı qırğınlara başçılıq edən şəxslərdən biri məhz Robert Köçəryan olub. Bu fəaliyyəti onu Ermənistandakı Qarabağ klanının, hərbi-xuntanın liderinə çevirib.

**Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a şərhində bildirdi ki, Putinin hazırda heç bir rəsmi vəzifəsi olmayan Robert Köçəryana doğum günündə zəng etməsi, müzakirə aparması və bu hadisənin dərhal ictimaiyyətə açıqlanması artıq hər şeyi aydınlaşdırır. Putin bu addımla Köçəryana dəstək verdiyini Ermənistan xalqına göstərdi, Paşinyana isə dolayısı ilə xəbərdarlıq etmiş oldu.**

**Dağlıq Qarabağ klanının liderlərindən olan keçmiş prezident Köçəryanın seçkidə xalqın dəstəyini qazanmasının mümkün olub-olmadığına gəlincə, politoloq qeyd etdi ki, Ermənistan xalqının illərdir onları sümürən Qarabağ klanına səs verməsi mümkünsüzdür:** "Paşinyanın hakimiyyətə gəlişinin yüz günlüyü ilə bağlı keçirilən mitinqlərdə 800 mindən artıq insanın iştirak etməsi də göstərdi ki, Qarabağ klanının rəqibi olan Paşinyanın ölkədə sosial bazası böyükdür. Belə vəziyyətdə şəffaf seçkilərdə Paşinyana Köçəryanın və ya Qarabağ klanının başqa bir təmsilçisinin qalib gəlməsi mümkün görünmür".

**Q.Hüseynli vurğuladı ki, bunu dərk edən Qarabağ klanı hadisələri təzyiq yoluna çəkməyə cəhd edir:** "Moskvanın və Ermənistanda böyük kapital toplamış keçmiş hakimiyyət təmsilçilərinin dəstəyinə arxalanan Köçəryan ürəkli danışır, hücum taktikası seçib. Belə görünür ki, Moskva Köçəryana çox ciddi təlimat verir. Bu təlimat Ermənistanda qüvvələr nisbətini dəyişməyə və Paşinyanı zəiflətməyə yönəlib. Qarabağ klanı və onlara bağlı olan oliqarxların Köçəryan-Serj Sərkisyan bloku ətrafında birləşəcəyi real görünür.

Paşinyan isə bildirib ki, Köçəryana qarşı cinayət işi qüvvəsində qalır və istintaq gedir. Yəni keçmiş prezidentə xatırladıb ki, sənin hələ gələcək seçkilərdə iştirak edib-etməyəcəyin ciddi sual altındadır.

Qərbin, xüsusən də ABŞ-ın Ermənistanda fəallaşmasının şahidi olmadayıq. Bu günlərdə Amerikadan İrəvana bir neçə generalın gəlməsi haqqında məlumatlar var. Bəzi konqresmenlərin də İrəvana gəldiyi və Paşinyana dəstək verdikləri məlumdur. ABŞ-da olan və Ermənistanın ən güclü diasporu sayılan Erməni Milli Komitəsi də Paşinyanı güclü dəstəkləyir. Beləliklə, Ermənistanda çox dramatik hadisələrin baş verə biləcəyini proqnozlaşdırmaq mümkündür.

Aydın görünür ki, Rusiya Ermənistanda həm oliqarxları, də siyasi qüvvələri bir cəbhədə səfərbər etməyə çalışır və buna müəyyən mənada nail olur. Payız aylarında bu cəbhələşmənin ciddi qarşıdurmaya gətirib çıxaracağı şübhə doğurmur. Bu qarşıdurma yaxın vaxtlarda elan olunacağı gözlənilən parlament seçkilərinin çox gərgin keçəcəyinə şübhə yeri qoymur. Paşinyanın və Serj Sərkisyan-Robert Köçəryan cütlüyünün timsalında ABŞ-la Rusiya Cənubi Qafqazın bu kiçik ölkəsində böyük siyasi rəqabətə girişir. Bu rəqabətin necə həll olunacağından regionun taleyi xeyli dərəcədə asılıdır".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Paşinyan Kremlin adamlarından əl çəkmir

## Rusiyaya yaxın şəxslərin həbs edilməsi və sıxışdırılması hansı nəticələri verə bilər?

**Ermənistanda inqilabdan sonra Rusiyaya yaxın şəxslərin həbs edilməsi və sıxışdırılması gündəmdən düşmür. Xüsusilə sabiq prezident Robert Köçəryan və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi Yuri Xaçaturovun həbsi və ardınca azadlığa buraxılmaları ilə bağlı müzakirələr çoxluq təşkil edir.**

Belə iddia olunur ki, Ermənistanda inqilab yolu ilə baş nazir postuna gələn Nikol Paşinyan Kremlə bağlı insanları Qərbin istəyi ilə həbsə atdırır, sıxışdırır. Bununla Rusiyanı sanksiyalar və digər təzyiq vasitələri ilə küncə sıxışdıran Birləşmiş Ştatların Kreml rəhbəri Vladimir Putinə mesajlar ünvanladığı bildirilir. Şimal qonşumuzun son aylarda Ermənistan ətrafında cərəyan edən proseslərə gözlənilən reaksiyanı göstərməməsi ciddi suallar doğurur. Bəzi ekspertlər hesab edirlər ki, Qərb dünyası Ermənistanla bağlı planlarını həyata keçirmək üzrədir.

Avqustun 31-də isə Rusiya prezidenti Vladimir Putin Ermənistanın keçmiş prezidenti Robert Köçəryana telefonla zəng edib. Report xəbər verir ki, V.Putin avqustun 31-də 65 yaşı tamam olan sabiq prezidenti təbrik edib. Aydındır ki, bu zəngin mənası ad günü təbrikindən çox, Köçəryanın Rusiya üçün kim olduğunu göstərmək mesajıdır.

**Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev Rusiyanın gedən proseslərdən narahat olduğunu bildirdi:** "Əslində Paşinyan hakimiyyətə gəldiyi ilk gündən Rusiya ilə olan münasibətlərə yenidən baxmayacağını, ittifaqlarda fəaliyyətlərini davam etdirəcəyini dəfələrlə söyləyib. Amma Rusiya onun Qərblə olan bağlılıqlarını yaxşı bildiyindən Köçəryan və Sərkisyan zamanlarında olan arxayınlığı indi hiss etmir. Ehtiyatlanır ki, daxildə siyasi rəqiblərini sıradan çıxardıb möhkəmlənəndən sonra Paşinyan fərqli siyasət yeridə bilər və bu istiqamətdə Qərbdən dəstək alar. Çünki Köçəryan, Xaçaturov və digərləri haqda cinayət işlərinin qaldırılması özünə qarşı formalaşacaq güc mərkəzinin neytrallaşdırılmasına xidmət etdiyi açıq görünür. Son vaxtlar olan müşahidələrim onu deməyə əsas verir ki, Qərb Ermənistana dəstək göstərmək istəsə də, vaxtilə Gür-



Yuri Xaçaturov

cüstanda olduğu kimi proseslərdə maraqlı tərəf kimi hələ açıq çıxış etməyəcək. Bununla da Paşinyanın möhkəmlənməsini, sonrakı etaplarda tədricən üzünü Qərbə çevirməsini istəyirlər. Bu arada Putin Paşinyana hər hansı sözünü keçirməyə heç bir cəhd etmir. Ermənistanda olan böyük maraqlarına rəğmən Rusiyanın nədən belə mövqedə olduğu da çox suallar yaradır. Bu sualların bir cavabını onda görürəm ki, Rusiya istənilən halda Ermənistandakı vəziyyətə nəzarət etdiyinə əmindir və vəziyyət nəzarətdən çıxacağı halda isə təsir imkanlarına arxayındır. Çoxlarının Ermənistanda Rusiyanın dayaqlarının qalmadığını və ya zəifləməsini deməsi isə inandırıcı deyil. Əvvəla, Ermənistan parlamentinin respublikaçılardan olan deputatlarının mütləq əksəriyyəti Rusiyanı dəstəkləyən güclərdir. Onların vasitəsilə çox işlər görülə bilər. Hazırda Köçəryanı həmin partiyanın başına gətirməklə güclü müxalifət formalaşdırmaq ideyası da hesab edirəm ki, Moskvadan gəlib. Onun həbsdən azad olunması da məhz bu ideya müəlliflərinin təzyiqi nəticəsində baş verib".

**Ekspert hesab edir ki, Rusiyanın Ermənistandan tamam çıxarılması perspektivlərini təsəvvür etmək çətindir:** "Buna imkan veriləcəyinə də inanmıram. Bu gün üçün mənim gəldiyim nəticə budur. Sonrakı etaplarda bu məsələ Rusiyanın özünün vəziyyətindən asılı ola bilər. Yəni zəiflədikcə bu ehtimalların artması, gücləndikcə isə azalması qaçılmazdır. Hazırda Paşinyan əleyhdarlarının əsas məqsədi müxtəlif vasitələrlə onu xalqın gözündən salmaqla dəstəyini zəiflətməkdir. Əgər onlar bunu bacaracaqlarsa, Ermənistanda siyasi gərginliyin növbəti mərhələsinin başlaması uzaqda olmayacaq. Hazırda Daşnaksütyun Partiyası respublikaçılarla bir yerdə Köçəryanın rəhbərliyi altında güclü ittifaq yaratmağa çalışır. Hələlik onlara mane olan əsas faktor insanlar arasında Paşinyanın nüfuzunun onlarınkından çox olmasıdır. Uzun illər Ermənistanda "Qarabağ klanı"na qarşı formalaşan nifrət də müxalifətin əl-qolunu rahat açmağa imkan vermir. O səbəbdəndir ki, rusiyameylli respublikaçılar mübarizələrini bir neçə ay bundan qabaq xalqın etirazı ilə hakimiyyətdən uzaqlaşdırılmış Sərkisyanın rəhbərliyi ilə deyil, 9 il öncə müddəti bitdiyi üçün kənara çəkilmiş Köçəryanın rəhbərliyi ilə aparmaq istəyirlər. Qaldırılan cinayət işləri, həbslər də məhz bu planın qarşısını almağa hesablanıb. Buna nə qədər nail olunacaq onu zaman göstərəcək. Amma o məlumdur ki, Köçəryanın, Xaçaturovun həbsdən buraxılması Paşinyan hakimiyyətinin humanist siyasətinin nəticəsi deyil. Böyük ehtimalla kənardan olan təzyiq vasitəsilə bu addım atılıb. Böyük ehtimalla Xaçaturov KTMT-nin baş katibliyindən uzaqlaşdırılacaq. Münasibətlərdə olan gərginliyi açıq müstəviyə keçirməmək məqsədilə Rusiya bu addımla razılaşacaq, eyni zamanda onun həbs olunmasına mane olmağa çalışacaq. Çünki Ermənistan KTMT-yə üzv ölkə kimi təşkilatın rəhbərliyinə namizədlərini özü müəyyənləşdirir. Paşinyan hakimiyyəti isə çalışacaq ki, özünə yaxın kadrlar belə vəzifələrdə təmsil olunsunlar. Hətta ola bilsin ki, Xaçaturovun istefasından sonra bu vəzifəni digər bir dövlətin nümayəndəsi daşısın. Bu məsələnin Ermənistanın KTMT ilə münasibətlərinə xələl gətirəcəyi məsələsinə qalanda isə, bu, Ermənistanın marağında deyil. Çünki bu birlikdən çıxacağı halda onun təhlükəsizliyi böyük sual altında olacaq. Qonşuları ilə ciddi problemi olan bir dövlət dəstəyi NATO-dan istəyəcək? Rusiyadan demək olar ki, tamamilə qopmuş Gürcüstan NATO-ya belə daxil ola bilmir".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 184 (7073) 1 sentyabr 2018

**Azərbaycan əsilli rusiyalı biznesmen Fərhad Əhmədov 600 milyon dollara yaxın dəyəri olan 115 metrlik "Luna" superyaxtasını keçmiş arvadı Tatyana Əhmədovaya uduzub.**

# Varlıların boşanma skandalları

## Azərbaycanlı biznesmenin təsəlli üçün əsasları var










"Arabian Business" internet portalının məhkəmə sənədlərinə istinadla yazdığına görə, Dubay şəriət məhkəməsi F.Əhmədovun vəkillərinin yaxtaya həbs qoyulması qərarından verdikləri apelyasiyanı rədd edib və London məhkəməsinin yaxtanın müsadirə olunaraq biznesmenin keçmiş arvadına boşanma təzminatı kimi verilməsi barədə hökmünü təsdiqləyib (virtualaz.org).

Xatırladaq ki, London məhkəməsi 2017-ci ildə F.Əhmədovun Rusiyada qaz şirkətinin satışından əldə etdiyi 1.2 milyard dollarlıq kapitalın yarısının boşanma təzminatı kimi onun keçmiş arvadına ödənilməsi barədə hökm çıxarıb. Lakin biznesmen bu qərarı qanunsuz sayıb və tanımayıb. Bildirib ki, o, Tatyanadan hələ 2000-ci illərin əvvəllərində vətəndaşı olduğu Rusiyanın qanunları əsasında rəsmən boşanıb. Və boşanmadan sonra könüllü olaraq hər il keçmiş arvadına milyonlarla dollar xərclik verib, ona Londonda malikanə, avtomobillər ayırıb.

Biznesmen London məhkəməsinin qərarına əsasən keçmiş arvadına "bir sent də verməyəcəyini" elan etmişdi. Daha sonra London məhkəməsi biznesmenin aktivlərinin axtarışına çıxdı və onun Panamada qeydiyyatdan keçmiş ailə investisiya fondunun aktivində olan "Luna" yaxtasının həbsi, Tatyananın xeyrinə boşanma təzminatı kimi müsadirə edilməsi haqda qərar çıxardı.

Maraqlıdır ki, Böyük Britaniya məhkəməsi əlverişli şərtlərlə boşanmaq istəyən bir çox qadınların üz tutduğu əsas instansiyadır. Məsələ burasındadır ki, Britaniya məhkəmələri boşanma prosesində qadınlara qarşı daha "səxavətli"dir. Buna görə də varlı ərlərindən maksimum çox pul qopartmaq istəyən qadınlar məhz Britaniyaya üz tuturlar. Lakin hər qadının da bu ölkənin məhkəmə yurisdiksiyasından istifadə etmək hüququ olmur. Belə ki, Böyük Britaniyada məhkəmədə iddia qaldırmaq üçün bu ölkədə daşınmaz əmlaka sahib olmaq lazımdır. İşin tərsliyi isə bundadır ki, əksər varlı adamlar ofşorlar anasında əmlaka sahiblənməyi sevirlər. Buna görə də Birləşmiş Krallıq varlı insanlar üçün həm də boşanma tələsinə çevrilir.

F.Əhmədov da keçmiş arvadına Londonda əmlak almaqla bu tələyə düşüb. Onun boşanma prosesindəki itkisinə gəlincə, bir çox həmkarlarına baxanda, azərbaycanlı milyarderin təsəlli tapması üçün əsasları var. Çünki boşanmadan vermək istədiyindən daha çox itirən yalnız o deyil.

Boşanmaların elə də dəb olmadığı Asiyada Honkonqun ən tanınmış milyarderlərindən olan Samatur Li Kin-Kan üçün də arvadından ayrılmaq elə də asan olmayıb. Bu çətin boşanma prosesində o, abort etdirmək istəmədiyi üçün ayrıldığı arvadı Florens Tsanq-Çu-Vinqə 157 milyon dollar ödəməli olub.

Məşhur basketbolçu Maykl Cordan arvadı Xuanita Cordandan ayrılanda 168 milyon dollar və Çikaqodakı malikanəsindən keçməli oldu.

Fərhad Əhmədovun "həmkarları"ndan olan Roman Abromoviç 5 övladının anası İrina Malandinaya boşanma müqabilində 300 milyon dollar verdi. Qayğıkeş ata obrazı olan Abromoviç keçmiş xanımı və övladlarının öz yaxta və təyyarələrindən sərbəst istifadəsinə indi də şərait yaradır.

Tanınmış aktyor, Hollivud ulduzu Mel Gibson 26 illik həyat yoldaşı Robin Murdan ayrılmaqla 425 milyon dollarına da əlvida deməli oldu.

Səudiyyəli biznesmen Adnan Haşagi arvadı Süreyyadan boşanmaqla 874 milyon dollarından da keçməyə razılaşıb.

"Formula 1"in prezidenti Berni Ekklstoun boşanarkən xanımı Slavitsaya 1,2 milyard dollar verməli olub.

Dünyaca nüfuzlu mediamaqnat olan Rupert Merdok məşhur boşanma siyahısına iki dəfə düşüb. Birinci dəfə 32 illik həyat yoldaşı Anna Mariyadan boşanarkən 1,7 milyard dollarlıq "xərclə". İkinci dəfə isə ondan sonra evləndiyi və 14 il birgə yaşadığı jurnalist Vendi Dengdən ayrılanda - bu dəfə 82 yaşlı milyarder 1,8 milyard dollar itirməli oldu.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# 40 minə yaxın azərbaycanlı xaricdə təhsil alır

## **Təhsil Nazirliyi:** "2018-19-cu tədris ili üzrə xaricdə dövlət hesabına təhsil alanların sayı 1100-dən çoxdur"

## **Ekspert:** "Ukrayna, Rusiya, Dərbənd, Dağıstan, Gürcüstanda təhsil alanların əksəriyyəti DİM-in imtahanından keçməyənlərdir"

**Təhsil Nazirliyindən "Yeni Müsavat"a verilən məlumata görə, 2018-19-cu tədris ili üzrə xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin sayı 1100-dən çoxdur. Onlardan 500-ə yaxını "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində, 600-dan çoxu isə hökumətlərarası təqaüd proqramı çərçivəsində təhsil alanlardır.**



Maraqlıdır, xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələr hansı ixtisaslara üstünlük verirlər?

**Təhsil eksperti Kamran Əsədov** "Yeni Müsavat"a bildirir ki, xarici ölkələrdə təhsil almaq üçün gedənləri əsasən bir neçə qrupa bölmək olar: "Onlardan biri Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında topladıqları ballar burada ali məktəblərə qəbul olmağa imkan verməyənlərdir ki, bunların sayı həddsiz dərəcədə çoxdur. Bu kateqoriyaya aid olan şəxslər daha çox Ukrayna, Rusiya, Dərbənd, Dağıstan, Gürcüstan kimi ölkələrin universitetlərində təhsil almağa üstünlük verirlər. Səbəb isə odur ki, bu universitetlərdə hətta prestijli ixtisaslarda təhsil alsalar belə, qeyri-qanuni yollarla təhsillərini başa vura biləcəklər. Bu ölkələrdə təhsil almağa gedənlərin əksəriyyəti hüquq, maliyyə-iqtisadiyyat kimi ixtisaslara daha çox üstünlük verirlər.

İkinci kateqoriyanı o şəxslər təşkil edir ki, onlar Azərbaycanda ali məktəblərə qəbul olurlar, amma aldıqları təhsil onları qane etmir. Ona görə də daha yüksək səviyyədə təhsil almaq üçün xarici ölkələrə üz tuturlar. Müəyyən şəxslər də var ki, ali təhsil almaq istəyir, amma Azərbaycanda təhsil haqları yüksək olduğu üçün daha ucuz təhsil haqqı olan ölkələrə gedirlər. Bu şəxslər daha çox Türkiyə, Macarıstan, və digər Avropa ölkələrinin universitetlərinə üz tuturlar və seçdikləri ixtisaslar tibb, kompüter və ya informasiya texnologiyaları, nano texnologiya kimi ixtisaslar olur.

Üçüncü kateqoriyanı isə Azərbaycan Respublikası Prezidentinin 2007-2015-ci illəri əhatə edən Xaricdə təhsil Dövlət Proqramı çərçivəsində xarici ölkələrdə təhsil almağa gedənlər təşkil edir. Bu proqram çərçivəsində daha çox azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almalarını və ölkənin inkişafının mühüm amilinə çevrilmələrini təmin etmək məqsədi güdülür. Xaricdə Təhsil proqramı ilə gəncləri daha çox müəyyən edilmiş prioritet ixtisaslar - beynəlxalq münasibətlər, tibb, baytarlıq, kənd təsərrüfatı, mühəndislik, yüksək texnologiyalar, qədim dillər cəlb edir. Dövlət proqramının əsas məqsədinin rəqabət qabiliyyətli iqtisadi sistemin formalaşdırılması və davamlı inkişafın təmin edilməsi baxımından ölkəmizin müasir tələblərə cavab verən kadrlara ehtiyacının ödənilməsi, istedadlı gənclərin dünyanın inkişaf etmiş ölkələrində təhsil almaq imkanlarının genişləndirilməsi prosesinin səmərəliliyinin artırılmasını təmin etməkdən ibarət olduğunu nəzərə alsaq, qeyd olunun ixtisaslar çox vacibdir".

**Təhsil eksperti hazırda xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin sayının 40 minə yaxın olduğunu qeyd edir:** "Onlardan 15 mini qardaş Türkiyədə, 20 mindən çoxu Rusiya, Ukrayna, Gürcüstan universitetlərində təhsil alır".

❑ **Ləman MUSTAFAQIZI, "Yeni Müsavat"**



# Bakı-Yessentuki-Kislovodsk avtobus reysi açılır

**13 sentyabrdan etibarən hər həftənin 4-cü günü Bakı vaxtı ilə saat 17:00-da Bakı Beynəlxalq Avtovağzal Kompleksindən (BBAK) Bakı-Yessentuki-Kislovodsk avtobus reysi həyata keçiriləcək. Bu barədə musavat.com-a BBAK-dan məlumat verilib.**

Avtobusun Kislovodsk şəhərinə çatma vaxtı növbəti gün saat 9:00-dur. Avtobusun Kislovodskdan geriyə yola düşmə vaxtı bazar günü saat 12:00, Yessentukidən yola düşmə vaxtı isə 13:00-dur.

Biletin bir istiqamətə qiyməti 70.00 AZN təşkil edir.

Bakı-Yessentuki-Kislovodsk reysinin biletlərinin satışı həm kassadan, həm də onlayn şəkildə həyata keçirilir. Sərnişinlərdən xahiş olunur biletləri mütləq şəkildə onlayn qaydada və ya Bakı Beynəlxalq Avtovağzal Kompleksinin (BBAK) kassalarından əldə etsinlər.

Bakı Beynəlxalq Avtovağzal Kompleksindən hərəkət etməyən beynəlxalq istiqamətlərə sərnişin daşıyan avtobuslara görə BBAK məsuliyyət daşımır.

5 yaşınadək uşaqlar üçün gediş haqqı (oturacaq verilməmək şərti ilə) pulsuzdur. 5 yaşından on yaşınadək uşaqlar üçün isə biletin qiymətinin 50%-i ödənilir.

Sərnişinlərin istəyinə uyğun olaraq, beş yaşınadək uşaqlar üçün də bileti yarı qiymətə əldə etmək mümkündür.

Sərnişinlərin rahatlığı üçün müasir standartlara cavab verən geniş salonlu və rahat oturacaqlı avtobuslar fəaliyyət göstərəcək. Eyni zamanda sərnişinlərin yol boyu çay və kofe ilə təmin olunması nəzərdə tutulub.

Qeyd edək ki, sərnişin sıxlığı çox olarsa, əlavə reys açıla bilər.

Ətraflı məlumat əldə etmək üçün (012) 406 01 58, (012) 406 01 59 telefon nömrələri vasitəsilə əlaqə saxlaya bilərsiniz.

❑ **Musavat.com**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 184 (7073) 1 sentyabr 2018

# ATƏT sədrinin "irəliləyiş" anonsu: Enzo Moavero Milanesdə sirr var?

## İtaliyanın xarici işlər nazirinin Qarabağla bağlı açıqlaması reallığı əks etdirmir; ekspertlər diplomatın optimizmini bölüşmür

**Ermənistanın yeni hökumətindən Qarabağ məsələsinin həlli ilə bağlı konstruktiv mövqe gözləyənlərin optimizmi uzun sürmədi. Baş nazir Nikol Paşinyan hökumət başına gəldikdən az sonra radikal davranışları ilə sələflərindən də irəli getmək niyyətini ortaya qoydu.**

Ermənistanın baş nazirinin ötən həftə növbəti dəfə Azərbaycanın işğal altındakı ərazilərinə gəlməsi, özü də onun Xocalı aeroportuna enişi ilə bağlı şounun nümayiş olunması açıq şəkildə beynəlxalq hüquqa zidd davranışdır. Paşinyan təbii ki, bu yolla Ermənistan əhalisinin gözündə ucalmaq, etirazlarla üzləşdiyi şəraitdə əlavə dividentlər əldə edib parlament seçkilərində uğur qazanmaq niyyətindədir. Ancaq onun bu davranışları təhlükəli perspektivlər vəd edir. Belə ki, Azərbaycan dəfələrlə bəyan edib ki, onun səbri tükənməz deyil və Ermənistanın torpaqları işğaldan azad etməməsi halında bütün məsuliyyət işğalçı ölkənin üzərinə düşəcək. Robert Köçəryan və Serj Sərkisyanın səhvlərindən nəticə çıxarmaq əvəzinə, N.Paşinyanın da öz xalqının fəlakətlərə aparmaq istiqamətində addımlar atması halında təbii ki, savaş qaçılmaz olacaq.

Əslində beynəlxalq təşkilatların, xüsusilə də Dağlıq Qarabağ probleminin həllinə məsul olan ATƏT-in Minsk Qrupu N.Paşinyanın bu davranışlarının, o cümlədən Ermənistan polisinin işğal altındakı Azərbaycan ərazilərinə "xidmətə" (!) gətirilməsinin qarşılığında kəskin reaksiya verəcəyi ilə bağlı gözləntilər yenə də özünü doğrultmadı.

**Düzdür, rəsmi Bakı məsələyə münasibət bildirib. Məsələn, Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib ki, Ermənistan polisinin Azərbaycanla sərhəd boyunca dislokasiya edilməsi Ermənistan ordusunda ciddi problemin olduğunu göstərir. (Publika.az ttp://publika.az/) H.Hacıyev ardınca qeyd edib:** "Ermənistan KİV-lərində yayılan məlumatlara əsasən, polis və daxili qüvvələrin Azərbaycanla sərhəd boyunca dislokasiya edilməsi Ermənistan silahlı qüvvələrində şəxsi heyətin komplektləşdirilməsində ciddi problemin olduğunu, şəxsi heyətin çatışmazlığını göstərir". XİN rəsmisi bildirib ki, belə qanunsuz hərəkətlər Dağlıq Qarabağ münaqişəsinin həllinə maneçilik törədir. ("Trend")

Ancaq söhbət Azərbaycanı hər vəchlə hərbi əməliyyatlardan çəkindirməyə çalışan dünya güclərinin reaksiyasından gedir. Beynəlxalq hüquq işğalçı ölkənin bu davranışlarına sərt reaksiyanın verilməsini, Ermənistana qarşı sanksiyaların tətbiqini tələb edir. Lakin N.Paşinyanın öz oğlunu Qarabağa, hərbi xidmətə göndərməsinin, üstəlik, özünün də Azərbaycan sərhədlərini pozmasının qarşılığında həmsədr ölkələr yenə də status-kvonun saxlanmasına yönəlik mövqelər nümayiş etdirməkdədirlər. Məsələn, Ermənistanın müdafiə naziri David Tonoyan ABŞ-ın ölkədəki səfiri Riçard Mills və Amerikanın yeni təyin olunmuş hərbi attaşesi Ceyms Tomsonu qəbul edib. Tərəflər müdafiə sahəsində Ermənistan-Amerika əməkdaşlığı və regional təhlükəsizlik məsələsini müzakirə ediblər. Məlumatda deyilir ki, ABŞ tərəfinin xahişi ilə Tonoyan Naxçıvan istiqamətində Ermənistan-Azərbaycan sərhədindəki vəziyyət barədə məlumat verib. Amma hansı ki, ABŞ səfiri Tonoyandan oğlunu hansı haqla Qarabağa hərbi xidmətə göndərməsinin səbəbini soruşmalı idi. Göründüyü kimi, ikili standartlar öz sözünü deyir.

****

Bu arada ATƏT-in fəaliyyətdə olan sədri, İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Enzo Moavero Milanes deyib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlar prosesində irəliləyiş var. "Report" TASS-a istinadən xəbər verir ki, nazir bunu cümə axşamı təşkilatın Daimi Şurasının iclasında çıxışı zamanı deyib. İtaliya xarici siyasət idarəsinin mətbuat xidmətinin yaydığı məlumata görə, o, hər iki ölkədə seçkilərin keçirilməsinə baxmayaraq, Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ ərazi mübahisəsinin nizamlanması üzrə danışıqlar prosesində irəliləyişin olduğunu qeyd edib. Nazir həmçinin bildirib ki, ATƏT Şərq və Qərb arasında konstruktiv dialoq üçün meydan olmalıdır.

Rəsmi məlumata görə, Azərbaycan və Ermənistan XİN başçıları BMT Baş Assambleyasının sentyabrda keçiriləcək sessiyasında həmsədrlərlə bir araya gələcəklər. Amma bu kimi görüşlərin statistikasına baxsaq, növbəti görüşü irəliləyiş adlandırmaq mümkün deyil. Belə olan halda ATƏT sədrinin optimizminin səbəbi qaranlıq qalır.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu da "Yeni Müsavat"a açıqlamasında İtaliyanın baş diplomatının nikbinliyindən təəccübünü gizlətmədi:** "Xarici işlər naziri Enzo Moavero Milanes təşkilatın Daimi Şurasının iclasında çıxışı zamanı deyib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlar prosesində irəliləyiş var. Görəsən, italiyalı nazir nəyə əsasən belə bir optimist cümlə işlədib? Axı hazırda hansı danışıqlar aparılır ki, həmin virtual danışıqlarda nəticə də olsun? Ermənistanın hazırkı baş naziri Nikol Paşinyanın başı hər tərəfdən dərd içindədir, o özü də dolayısı ilə etiraf edib ki, danışıqlara hələ hazır deyil. Görünür, İtaliyanın xarici işlər naziri, sadəcə, cəbhə bölgəsindəki nisbi sakitlikdən bu qərara gəlib ki, guya vəziyyət normaldır". **E.Şahinoğlu qeyd etdi ki, Almaniya kansleri Angella Merkel də bölgəyə səfəri zamanı atəşkəsə istinad edərək vəziyyətin normal olduğuna işarə etmişdi:** "Atəşkəsə istinad yanlışdır. Cəbhə bölgəsində istənilən an hər şey baş verə bilər. Bundan heç bir tərəf sığortalanmayıb. İtaliya ATƏT-in sədri kimi münaqişənin həllinin sürətləndirilməsi üçün heç nə təklif etmir. Məsuliyyətdən yaxa qurtarmaq üçün də "danışıqlarda irəliləyiş var" kimi beynəlxalq aləmə yanlış mesaj göndərirlər". **Politoloqun fikrincə, Azərbaycan XİN cavab açıqlaması ilə danışıqlarda heç bir irəliləyişin olmadığını bildirməlidir, əks halda, ətrafdakılar İtaliyanın xarici işlər nazirinin sözlərinə inanacaqlar:** "Bu vaxta qədər ATƏT çox ölkə sədrlik edib və hər biri Dağlıq Qarabağ münaqişəsinin həlli ilə ciddi məşğul olacağını açıqlasa da, nəticə göz qabağındadır. Vaxtilə ATƏT sədri olan Almaniya da aktiv olacağını vəd edirdi. Hətta 2016-cı ildəki hərbi toqquşma Almaniyanın sədrliyi dövrünə təsadüf etdi. Ancaq yenə nəticə olmadı. Kənar dövlətlərdən münaqişəni həll edə biləcək tək dövlət Rusiyadır. Bu dövlət isə təəssüf ki, hələ ki münaqişənin həllində maraqlı deyil. Halbuki son günlər Azərbaycanda belə səslər eşidilir ki, Rusiya Azərbaycanla strateji müttəfiqliyini gücləndirib münaqişəni ədalətli həll etmək istəyir. Doğrusu, mənim şübhəm var. Münaqişənin həlli əvəzində bizə qarşı irəli sürüləcək şərtlərin ağırlığını da nəzərə almalıyıq".



**Elçin Mirzəbəyli:** "Ola bilsin ki, italiyalı nazir danışıqlar prosesi ilə bağlı hansısa məlumatlara malikdir"



**Elxan Şahinoğlu:** "Münaqişənin həlli əvəzində bizə qarşı irəli sürüləcək şərtlərin ağırlığını nəzərə almalıyıq"

**"Danışıqlar prosesində hansısa irəliləyişlərin olduğu ilə bağlı təsəvvürün belə olmadığı bir vaxtda ATƏT-ə sədrlik edən İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Enzo Moavero Milanesin açıqlaması maraq doğurur".**

**Bunu isə BAXCP sədrinin müavini, politoloq Elçin Mirzəbəyli isə qəzetimizə dedi. Siyasi şərhçinin fikrincə, bunun nə qədər əsaslı olub-olmadığını müəyyənləşdirmək imkanımız olmadığından ümumi mənzərəyə qiymət verə bilərik:** "Ola bilsin ki, italiyalı nazir danışıqlar prosesi ilə bağlı hansısa məlumatlara malikdir. Lakin sadəcə, Ermənistandakı qeyri-sabit vəziyyəti nəzərə alsaq, optimizm üçün əsas olmadığı qənaətinə gələ bilərik. Belə bir vəziyyətdə Ermənistan rəhbərliyinin ATƏT nümayəndələri ilə görüşdə müəyyən qədər pozitiv fikirlər səsləndirməsi vaxt qazanmaq üçün manevr xarakterli də ola bilər. Hesab edirəm ki, Enzo Moavero Milanesin fikirləri reallığı əks etdirmir və yalnız danışıqlar prosesi ətrafında müsbət aura yaradılmasına xidmət edir".

****

Danışıqlar prosesində "irəliləyişin olduğu" barədə rəyin yaradılması başqa niyyətlə də ola bilər. Məsələ burasındadır ki, Almaniya kansleri Angela Merkel İrəvanda keçirdiyi mətbuat konfransında Berlinin Qarabağ konfliktinin həllinə yardım etməyə, Qarabağ məsələsinin həllinə görə Almaniyanın məsuliyyəti üzərinə götürməyə hazır olduğunu söyləmişdi. Almaniya ATƏT-in Minsk Qrupunun üzvüdür. Lakin Qarabağ probleminin həlli ilə bağlı danışıqlar Minsk Qrupunun həmsədrləri (ABŞ, Rusiya, Fransa) formatında aparılır. Bu mənada İtaliya XİN rəhbərinin son açıqlamasını Almaniyanın həmsədrliyə iddiasına dolayı cavab da saymaq olar. Ola bilsin diplomat ATƏT-ə sədrlik etdiyi dövrün fəaliyyətsizliyi fonunu dağıtmaqdan ötrü nikbin danışıb. Bu məqamda Moskvadan verilən reaksiya da maraqlıdır. "Almaniyanın Qarabağ konfliktinin həllində iştirakı məsələsini konfliktin çözülməsinə birbaşa cəlb edilən ölkələr müəyyən etməlidir". Bunu jurnalistlərə açıqlamasında Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib. Rusiya XİN sözçüsünün bu reaksiyası Almaniyanın Qarabağ məsələsinin həllində iştirakına mənfi reaksiyasının nümayişidir. Belə demək mümkünsə, Rusiya başda olmaqla, "həmsədrlər nə əldən qoyur, nə yardan doyur". Onlar faktiki olaraq Qarabağ məsələsini öz inhisarlarında saxlamaqda maraqlıdırlar. Əgər belə olmasaydı, heç olmasa Qubadlı rayonunun Ermənistan tərəfindən işğalının 25 illiyi ilə əlaqədar bəyanat yayar, işğalçıya quru xəbərdarlıq edərdilər...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 184 (7073) 1 sentyabr 2018

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamentinin məlumatına görə, avqustun 30-da Bakı və Abşeron yarımadasında tozun miqdarında saat 19:00-da artım müşahidə olunub. Belə ki, tozun miqdarının sanitar normadan 6 dəfə yuxarı olduğu qeydə alınıb.**

# Bakını bürüyən toz qatı ilə bağlı xəbərdarlıq

## Səhiyyə Nazirliyinin rəsmisi maska taxmağı məsləhət görür; **pediatr:** "Havadakı toz sağlam uşaqlara da zərərlidir"

Atmosferdə müşahidə olunan toza səbəb Türkmənistandan atmosfer axınları ilə toz-dumanının daxil olmasıdır və belə tozlu hava şəraitinin 2 gün davam edəcəyi proqnozlaşdırılır.

Qeyd edək ki, departament Bakıda və Abşeron yarımadasında müşahidə olunan toz-dumanı ilə bağlı operativ iş rejiminə keçərək hər üç saatdan bir atmosfer havasında müşahidələr aparır.

Xatırladaq ki, saat 10:00-da bu göstərici 3, 13:00-da 5,4, 16:00-da 5,6 dəfə sanitar normadan yuxarı olub.

İddia edilir ki, Bakı və Abşeron yarımadasında atmosferdə tozun miqdarının normadan çox olması əslində Türkmənistanla deyil, Bakıda gedən tikinti və söküntü işləri, bir də daş karyerləri ilə əlaqədardır.

**İddialara cavab verən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ekoloji təbliğat sektorunun müdiri Umayra Tağıyeva "Yeni Müsavat"a bildirir ki, keçmişdə də belə proseslər müşahidə olunub:** "Sadəcə indi müasir texnika, peyk sistemlərinə əsaslanaraq təbiətdə baş verən hadisələri izləmək, proqnozlaşdırmaq və səbəbləri araşdırmaq imkanımız genişlənib. Türkmənistandan bizim ərazimizə gələn toz cənub-şərq axınları ilə hərəkət edən hava kütləsi ilə gəlib. Biz bunu müasir rəqəmli modellərin nəticəsini təhlil edərək müəyyənləşdiririk, eyni zamanda peyk müşahidə sistemləri də bu fikri təsdiqləyir. Düzdür, tikinti zamanı, karxanalarda aparılan iş zamanı atmosferdə tozun miqdarı artır. Lakin bu proses lokal ərazini əhatə edir. Yeni çirklənmə mənbəyinə yaxın yerlədə konsentrasiyalar daha çox olur. Hazırda müşahidə olunan proses sırf sinoptik prosesle bağlıdır. Türkmənistanda tozlu buruğan baş verib. Və həmin toz cənub - şərq axınları ilə tozlu bulud bizim üzərimizə hərəkət edib. Bu toz Abşeron yarımadasını bütövlüklə əhatə edib. 3 gün əvvəl tozun miqdarı normadan 5-6 dəfə çox deyildi. 5 gün bundan əvvəl, yaxud bir ay əvvəl şəhərdə tikinti yox idi? Daş karyerləri işləmirdi? İşləyirdi. Onda ilin 365 günü atmosferdə tozun miqdarı 5-6 dəfə çox olmalı idi".



Maraqlıdır, bəs atmosferdə tozun normadan dəfələrlə çox olması insan orqanizminə necə təsir edir?

**Pediatr Vaqif Qarayev hesab edir ki, Bakı kimi tozlu ikinci şəhər təsəvvür etmək çətindir:** "Şəhərin hər yerində tikinti gedir, heç kəs də ətrafı nəzərə almır. Qara Qarayev prospektində 2-3 həftə əvvəl küləkli günlər idi. Ağacların altına təzə torpaq tökürdülər ki, üstünə qazon düzsünlər. Təkcə orada işləyənlər deyil, ətrafdakılar da nəzərə almırlar. Külək torpağı göyə sovururdu. Axı niyə külək olanda tökürsünüz, hava sakit olanda tökməк olmazmı? Deyirlər, Bakıya toz Türkmənistandan gəlib. Bu toz uşaqlara birmənalı ziyandır. Adam hava əvəzinə tozla nəfəs alır, tənəffüs orqanlarına toz gedir. Həmçinin allergik problerləri olan uşaqlarda mütləq kəskinləşmə yaradır. Gözlərdə konnektivit yaradacaq. Yaydır, açıq geyinirik. Tozdakı infeksiya uşaqların dərisinə oturacaq, dəridə müxtəlif problemlər yaradacaq. Allergiyası, astması, bronxiti olmayan sağlam uşaqlarda da mütləq problem yaradacaq. Bu problemlə heç kim məşğul olmur. Toz gözlə görünəndə ən çox da media yazır, amma bir balaca diqqətlə baxsaq, Bakının üzərində həmişə toz olur. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Türkmənistanı günahlandırmaqdansa, hər gün şəhərin müxtəlif yerlərində toz-dumana qarışır. Bununla mübarizə aparmalıdır. Ümumdünya Səhiyyə Təşkilatının qənaətinə görə, insanın sağlamlığının cəmi 10-15 faizi təbabətdən asılıdır. Qalan ekoloji faktor, geyim, yemək, yuxu, iş şəraiti filan və s. bunların da təbabətə qətiyyən aidiyyəti yoxdur. Sadəcə, tibb personalı maarifləndirmə baxımından deyə bilər, filan-filan şeylərdən uzaq olun. Vəssalam. İcrası tibb personalına aid deyil. Şəhərin ekoloji vəziyyəti pis gündədirsə, bununla kimsə məşğul olmalıdır. Həkim deyir, uşağı təmiz havada çıxarın. Hara çıxartsın? Bir verilişə baxdım, parklar qupqurudur. Su yoxdur. Su yoxdursa, nəyə getsinlər? Parkların hamısı mərmər, daşdır. Bəs bu yazıq uşaq harada oynasın? Axı uşağın ayağı torpağa, gilə dəyməlidir".

**Pediatr 15-20 il əvvəl Bakının bu vəziyyətdə olmadığını deyir:** "Yayın qızmar vaxtı camaat gedirdi "Torqovı" deyilən əraziyə. Orada yarım saat oturmaq kifayət edirdi ki, insan normal nəfəs alsın. Dənizdən gələn rütubətli hava insanın ağciyərlərini açırdı. Amma indi "Torqovı"da cəmi 5 dəqiqə otursaq, tər basır. Çünki havanın ventilyasiyası yoxdur. "Troqovı"nın ətrafında o qədər göyə dirənən binalar tikiblər ki, hava gəlmir. Sonra Bakının ətrafı daş karyerləri ilə doludur. Yanıma bir ailə gəlmişdi ki, bəs uşağın bədənini yara basıb. Atası soruşdu ki, həkim, siz ancaq uşaqlara baxırsınız? Dedim, bəli. Dedi, mənim də, yoldaşımın da bədənində eyni yaralar var. Məlum oldu ki, hamısı eyni infeksiyadır. Ata daş karyerində işləyirdi. O adamın dediyi məni varımdan yox elədi. Nə iş yerində su var, nə kirayə yaşadığı evdə. İşdən gələndə yuyuna bilmir. Ondan iki gün sonra Ekologiya və Təbii Sərvətlər Nazirliyi elan verdi ki, daş karyerlərində tozun miqdarı 10-30 dəfə çoxdur. Daş karyerləri illərdir işləyir, indi oyanmısınız? O karyerlər neçə insanın ömrünü yarıda qoydu, neçə insanı əlil etdi. Yəni Bakının ətrafında xeyli toz var. Türkmənistanı boş verin, oradan gələn toz uçub gedəcək. Daimi qalanla mübarizə aparmaq lazımdır".

**"Yeni Müsavat"a danışan Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzinin şöbə müdiri Ziyəddin Kazımov isə havadakı tozun miqdarı normadan artıq olduğu üçün əhalini maska taxmağa çağırır:** "Havada toz miqdarının normadan artıq olması ilə əlaqədar hər kəs tozdan özünü qorumaq üçün maska taxmalı, çalışmalıdır ki, belə havada bayırda çox qalmasın. Bu toz gözün selikli qişasına, ağız-burun boşluğuna mənfi təsir göstərir. Bu toz insan orqanizminə uzun müddət təsir göstərərsə, yuxarı tənəffüs yolları xəstəliyi olan insanlarda xəstəliyin kəskinləşməsinə gətirib çıxara bilər".

❑ **Ləman MUSTAFAQIZI,**
**"Yeni Müsavat"**

# Məzuniyyət hüququ və müddəti - kim daha çox dincəldi...

## Pedaqoji fəaliyyətlə məşğul olan işçilərə əmək məzuniyyəti 56 təqvim günü verilir

**Yay mövsümü məzuniyyət dövrü kimi qəbul edilir. Bir çox peşələrdə məzuniyyət vaxtı dəyişkən olsa da, əksər peşələrdə illik məzuniyyət məhz yayda olur.**



Fazil Talıbov

Artıq yay bitmək üzrədir. Məzuniyyətə gedənlərin əksəriyyəti də qayıdıb. Maraqlıdır, kim nə qədər dincəldi? Qanunla kimlərə daha çox məzuniyyət hüququ verilir?

"Yeni Müsavat"ın sorğusuna cavab olaraq **Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyin mətbuat katibi Fazil Talıbov** bildirir ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 118-ci maddəsinə əsasən pedaqoji fəaliyyətlə məşğul olan işçilərə əmək məzuniyyəti 56 təqvim günü verilir: "Azərbaycan xalqı qarşısında xüsusi xidmətləri olan işçilərin - ölkəmizin azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə xəsarət alan (yaralanma, travma, kontuziya) insanların əmək məzuniyyətinin müddəti 46 təqvim günü müəyyən edilib. Əmək Məcəlləsinin 119-cu maddəsi ilə müəyyən olunmuş əlilliyin qrupundan, səbəbindən və müddətindən asılı olmayaraq işləyən əlilliyi olanlara və sağlamlıq imkanları məhdud olan 18 yaşınadək işçilərə əmək məzuniyyətinin müddəti azı 42 təqvim günü verilir. Yaşı 16-dan az olan işçilərə 42 təqvim, 16 yaşdan -18 yaşadək 35 təqvim günü verilir. Teatr-tamaşa müəssisələrinin, televiziya, radio və kinematoqrafiya qurumlarının bədii və artist heyətlərinə əmək məzuniyyəti 42 təqvim günü, bilavasitə səhnəyə xidmət edən işçilərinə isə 35 təqvim günü müddətində verilir".

**F.Talıbov onu da qeyd edir ki, məzuniyyətin hesablanması qaydası Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 140-cı maddəsinə əsasən aparılır:** "Məzuniyyət vaxtı üçün ödənilən orta əmək haqqı onun hansı iş ili üçün verilməsindən asılı olmayaraq məzuniyyətin verildiyi aydan əvvəlki 12 təqvim ayının orta əmək haqqına əsasən müəyyən edilir. Məzuniyyət günlərinin əmək haqqını müəyyən etməkdən ötrü məzuniyyətdən əvvəlki 12 təqvim ayının əmək haqqının cəmlənmiş məbləğini 12-yə bölməklə orta aylıq əmək haqqının məbləği tapılır və alınan məbləği ayın təqvim günlərinin orta illik miqdarına - 30,4-ə bölmək yolu ilə bir günlük əmək haqqının məbləği müəyyən edilir. Bu qayda ilə müəyyən edilmiş bir günlük əmək haqqının məbləği məzuniyyət müddətinin təqvim günlərinin sayına vurulur".

**Nazirlik rəsmisinin sözlərinə görə, Əmək Məcəlləsinin 131-ci maddəsinin 1-ci hissəsinə əsasən işçinin birinci iş ili üçün əmək məzuniyyətindən istifadə etmək hüququ əmək müqaviləsinin bağlandığı gündən etibarən altı ay işlədikdən sonra yaranır:** "Eyni məcəllənin 137-ci maddəsinin 2-ci hissəsinə əsasən müstəsna hallarda istehsalatda baş vermiş qəzanın nəticələrinin aradan qaldırılması, habelə təxirəsalınmaz işlərin görülməsi zərurəti olduqda əmək məzuniyyətində olan işçi ancaq onun razılığı ilə məzuniyyətdən geri çağırıla bilər. Əmək məzuniyyətindən geriçağırma əmrlə (sərəncamla, qərarla) rəsmiləşdirilməlidir".

❑ **Ləman MUSTAFAQIZI,**
**"Yeni Müsavat"**

# Dünya məşhurlarının vəsiyyətləri, mirasları və son sözləri...

## İbrətlik hekayələr və son günün unudulmaz anları; "Komediya bitdi" deyən kim, heyvan qəbiristanlığında basdırılmaq istəyən kim...









**25 avqustda həyatını itirən ABŞ senatoru Con Makkeyn cənazəsinə prezident Donald Trampın gəlməməsini tapşırıb. Bundan əlavə, o, keçmiş prezidentlər Barak Obama və Corc Buşun yas mərasimində çıxış etmələrini vəsiyyət edib.**

Maraqlıdır ki, Donald Tramp Makkeynin bu vəsiyyətindən inciməyib və bu barədə hər hansı soyuq fikir bildirməyib.

"Yeni Müsavat" mövzunun gündəmdə olmasından istifadə edib, məşhurların vəsiyyətləri, son sözləri, mirasları ilə bağlı ilginc bir dosye hazırlayıb. Müğənnisi, siyasətçisi, ulduzu, alimi... bunlar ölümlərindən sonra nəyin necə olmasını istəyiblər...

Sənətçi Sezen Aksu oğlu Mithat Can üçün böyük bir sərvət hazırlayır. Mahnıları dillərdən düşməyən Minik Sərçə kimsəyə verməyə qıymadığı çox özəl bəstələrini Kanlıcadakı evinin kassasında yığmağa başlayıb. 1974-cü ildə girdiyi musiqi sektorunda bəstələri ilə bir çox şəxsi ulduza çevirən və mahnıları dillərə dastan olan Aksu oğlu Mithat Canın gələcəyini təminata alıb. Müğənni oğlu üçün hazırladığı bu özəl mirasını, sadəcə, çox yaxın dostları ilə paylaşıb. Anasının bu sürprizindən Mithat Can şok keçirib. S.Aksu öz həyatından təsirlənərək yazdığı mahnıları yığmağa davam edərkən, oğluna "Sənə vəsiyyətimdir, bu mahnıları mən öləndən sonra sən yaşat" deyib. Mithat Can da anasına söz verib.

**Türkiyənin məşhur aktyoru Cüneyt Arkın isə qazandığı pullarla heç bir iş görmədiyini deyib:** "Biz pulun da, şöhrətin də qiymətini bilmədik. Bir dükan açmadıq, bir iş yeri qurmadıq. Bilmirəm ki, çox uzun yaşasam səfalət içində qalacam, ya yox".

**Atlara çox düşkün olduğunu deyən usta aktyor eyni zamanda aşağıdakıları söyləyib:** "Bir vaxtlar atım - Həsrətimin yanına basdırılmaq istəmişdim. Amma sonra yanlış anlaşılacağından qorxduğum üçün vaz keçdim. Məni ata-anamın yanında basdırın".

**Məşhur rejissor Zeki Demirkubuzun Qurban Bayramı yaşanarkın sosial şəbəkədə paylaşdığı status təəccüb yaradıb:** "Vəsiyyətimdir. Heyvan qəbiristanlığında basdırın məni".

**Demirkubuz daha öncə də aşağıdakıları demişdi:** "Bu ölkəyə və bu həyata dair heç bir şeyin heç bir zaman mənim arzuladığım kimi olmayacağını bilir, artıq bundan acı duymuram. Yaxşı, gözəl və doğru da olsa, mənim istədiyim bir şey sizə rəğmən olacaqsa, mənə rəğmən olmasın".

Çarlz Darvin son günlərini olduqca rifah içində keçirənlərdəndir. Darvin 1882-ci ildə həyatını itirdiyi zaman arxasında 146,911 sterlinq (bu günün pulu ilə 13 milyon sterlinq) dəyərində bir mal varlığı qoydu.

Cənubi Afrikanın əfsanəvi lideri Nelson Mandelaya keçək. Mandela torpağa tapşırılar-tapşırılmaz ailəsində miras üstündə dava başlayıb. Cənubi Afrika qəzeti olan "Times"ın yazdığına görə, Mandelanın böyük nəvəsi olan Mandla Mandela əfsanəvi liderin Kunu kəndindəki ailə evindən çıxarılıb. Evə gələn Mandelanın böyük qızı Makazivenin evin qıfılını dəyişdirdiyi bildirilir. Babasına aid ərazidə olan evində qalan Mandla bazar günü səhər oyandığında evində elektrik və suyun kəsildiyini görüb.

Tərəflər arasında intriqaların hələ Mandelanın ölümündən əvvəl başladığı bildirilir. Münaqişəyə səbəb isə miras davası olub. Mandela öz bibilərini babasının milyon dollarlıq varidatını ələ keçirməkdə ittiham edir. Onun atası 2005-ci ildə QİÇS-dən dünyasını dəyişdikdən sonra uşaqlarının Kunuya yaxın əraziyə köçməsi Makazivenin xoşuna gəlməyib və münaqişə də bundan sonra başlayıb.

2008-ci il oktyabrın 25-də vəfat etmiş dünya şöhrətli müğənni Müslüm Maqomayevin ailəsindən də miras davası yan keçməmişdi. Mərhum sənətkarın müğənni Mila Karevoyla vətəndaş nikahından olan oğlu Müslüm-Daniil atasından qalma mirasa sahib çıxmaq istəyirdi. ABŞ-da yaşayan Mila Karevoy və oğlu bununla bağlı vəkil tutdular və məhkəməyə müraciət etmək üçün sənədlərini hazırladılar. M.Karevoy həmin vaxt iddia edirdi ki, onda Müslüm Maqomayevin vəsiyyətnaməsi var.

"Yalandır, ortada heç bir vəsiyyətnamə yoxdur. Çünki atam qəfildən vəfat etdi. 3 günün içində əlimizdən getdi. Ona görə də vəsiyyətnamə yaza bilməzdi. Nə vəsiyyətnamə? O, xəstəxanada olanda bizə gələcək planlarından danışırdı".

Bu sözləri isə Müslüm Maqomayevin qızı Marina Maqomayeva bildirib. Bəlli olub ki, M.Maqomayev istər SSRİ dönəmində, istərsə də ondan sonra fantastik tirajla çıxan kaset və disklərinə görə milyonlarla rubl həcmində qonorar alırmış.

Məşhur Türkiyə sənətçisi Kayahanın ölümündən sonra ailəsi arasında miras davası böyüdü. Belə ki, Kayahanın ilk evliliyindən olan qızı Beste Haravon vəsatət qaldırdı. Beste Haravon məhkəmə ərizəsində atası ölməmişdən öncə İpek Açarın atasının hesabından külli miqdarda pul çəkildiyini bildirdi.

Kayahanın iki tərəfi qarşı-qarşıya gətirən mirası Gömeçdəki məşhur Gönül villa, yenə Gömeçdə bir mənzil, bankda külli miqdarda pul, gəmi və iki avtomobildən ibarətdir.

Kayahan irsinin 8/3 hissəsini böyük qızı Besteye, 8/3 hissəsini kiçik qızı Aslı Gönülə və 8/2 hissəsini həyat yoldaşı İpək Acara vəsiyyət edib.

2014-cü ildə dünyasını dəyişən türkiyəli məşhur sənətçi Adnan Şensesin mirası qırxı çıxmadan bölüşdürülməyə başlandı. A.Şensesin həyat yoldaşı Lalə xanım ilə ilk həyat yoldaşı Meral Tunalıdan olan qızı Arzum arasında miras davası düşüb.

Lale xanım ilə Arzum sənətçinin illər əvvəl aldığı Zeytinburnundakı yanacaqdoldurma məntəqəsini 10 milyon dollara satışa çıxarıb.

Qeyd edək ki, Şensesin mülkiyyətinə Zeytinburnundakı yanacaqdoldurma məntəqəsindən başqa, İstanbulun Ortaköy, Akatlar və Arnavutköy rayonlarında bir lüks ev, İngiltərədə bir lüks ev, Levent məhəlləsində bir villa, Bodrum Gümüşlükdə bir ferma, iki "Volksvagen" avtomobili və iki tanker daxildir.

Türkiyənin tanınmış siyasətçilərindən Nəcməddin Ərbakan 2011-ci ildə 84 yaşında dünyasını dəyişəndən sonra uşaqları arasında mirasının paylaşımı mövzusunda problemlər yaşanmış və məsələ məhkəməyə daşınmışdı. Üç uşaqdan Ərbakanın böyük qızı Zeynəb Ərbakan "mirasdan payını yetərincə ala bilmədiyini və qardaşlarının mal oğurladığını" iddia edərək, bacısı Elifdən, qardaşı Fatik Ərbakandan, eləcə də yeznəsi Mehmet Altınözün də aralarında olduğu 7 nəfər haqqında məhkəmə qarşısında iddia qaldırmışdı.

Məşhur italyan tenor Luçiano Pavarottinin 2007-ci ildə ölümündən sonra ailə üçün miras qalmaqalı başlandı. Toplam sərvəti 600 milyon dollar olaraq təxmin edilən Pavarottinin mirası ilə bağlı dörd qızı, ikinci həyat yoldaşı Nicoletta Mantovani və vəqflər məhkəmədə qarşı-qarşıya gəldilər.

İntihar edən məşhur aktyor Robin Vilyamsın ailəsində də miras qalmaqalı uzun müddət müzakirə olunub. Amerikalı aktyorun sonuncu həyat yoldaşı Syuzan Şneyder və Vilyamsın keçmiş evliliklərindən olan üç uşağı mirasda anlaşmadıqları üçün məsələni məhkəməyə daşıdılar.

2009-cu ildə ürəyinə məğlub olan pop-kral Maykl Ceksonun ilk vaxtlar 30 milyon dollar miras qoyub getdiyi məlum olmuşdu. Pullar Ceksonun 81 yaşlı anası Ketrin, uşaqları Prins, Blanket və Paris arasında bölünəcəkdi. Həmin vaxt ailə adından açıqlama verən vəkil 2009-cu ildə ölən Mayklın 310 milyon dollar borcu ödəndikdən sonra yerdə bu rəqəmin qaldığını demişdi. Bu günə qədər 750 milyon tirajla albomu satılan Elvis Presley, "Bitlz" kimi ulduzların yanında adı çəkilən Mayklın hətta məhəlləsindəki əczaxanaya də borcu olub, buna görə məhkəməlik də olublar. Bu və digər borclarını ödəmək üçün mərhum London konsertlərini vermək istəyirdi ki, Əzrayıl başının üstünü kəsdirdi.

M.Ceksonun atası Ceo Cekson da oğlunun mirasından pay istədi. Aradan bir neçə il keçəndən sonra Ceo Cekson Los Anceles məhkəməsinə iddia ərizəsi ilə müraciət edib. O iddia ərizəsində yazıb ki, Maykl Ceksonun anası Katerinə hər ay oğlunun mirasından 86 min dollar verilir. Qeyd edək ki, Maykl Cekson vəsiyyətində 3 uşağına anasının baxmasını istəyib. 86 min dollar da hər ay onun mirasından bu məqsədlə anasına ayrılır. Ceo Cekson isə özü üçün pul əldə etmək istəyir və hər ay ona 15 min dollar verilməsini tələb edib. Ata bu pulu kirayə, yemək və təyyarə biletlərinə xərcləyəcəyini bildirib.

Türkiyənin barmaqla sayılan Sabancı ailəsi də miras davasından öz nəsibini alıb. Sabancı Holdinqin qurucularından olan Hacı Ömer Sabancının 1979-cu ildə ölən oğlu İhsan Sabancının Nevin Tenik ilə yaşadığı qeyri-rəsmi nikahdan dünyaya gələn Sevilay Sabancı Çınar babasından qalan mirasa ortaq ola bilmək üçün 2003-cü ildə məhkəməyə müraciət etdi. Çınar məhkəmədən "Sabancının varisidir" qərarını çıxarıb.

### "Hər şeydən elə bezdim ki..." - məşhurların son sözləri

İndi keçək məşhurların son sözlərinə. Adamlar son nəfəslərini vermədən öncə... bəlkə də həyatlarının ən mənalı sözlərini səsləndirirlər.

**Con F.Kennedi**: "Xeyr, əsla demərəm". (John F. Kennedi "Cənab prezident, Dallasdakı insanların sizi isti bir şəkildə qarşılamadıqlarını deyə bilməzsiz" sözünə verdiyi cavab).

**Dominiq Bouhours - məşhur fransız dilçilik mütəxəssisi:** "Ölmək üzrəyəm və ya ölməkdəyəm: bu ifadələrin ikisi də doğrudur".

**Josef Henri Green:** "Dayandı". (Öz nəbzini ölçəndə deyib)

**Mao Zedong:** "Özümü pis hiss edirəm. Həkim çağırın".

**Nostradamus:** "Sabahdan etibarən artıq burada olmayacam".

**Carl Panzram:** "Tez ol, sərsəm adam, sən belə asta hərəkət edəndə mən 10 adam öldürərdim". (Serial qatil Panzram, asılaraq edam edilən zaman)

**Chopin:** "Məni kəsib içimi açmalarını təmin etməyə and iç. Beləcə canlı-canlı basdırılmaqdan qurtularam". (Canlı basdırılmaqdan qorxurdu)

**Vinston Çörçil:** "Hər şeydən elə bezdim ki..."

**Neville Heath:** "Tfu, kaş kimi bunu duble etsəydiniz..." (Asılmadan öncə son bir içki içmək istəyən qatil)

**Corc Bernard Şou:** "Bu da mənim üçün yeni bir təcrübə olacaq".

**Nilolay Qoqol:** "Bir nərdivan, tez bir nərdivan gətirin".

**Höte:** "Bir az daha işıq".

**Kant (filosof):** "Bu, daha yaxşıdır".

**Namiq Kamal:** "Bir az istirahət edim".

**Oskar Vayld:** "Ya divar kağızı gedir, ya da mən"

**Peyami Safa:** "Məhz bu, çox pisdir".

**Ludviq van Bethoven:** "Komediya bitdi".

**Çarli Çaplin:** "Niyə olmasın? Necə də olsa öz malıdır" ("Tanrı ruhunu bağışlasın" deyən keşişə cavab olaraq).

**Albert Eynşteyn:** "Mən vəzifəmi burada bitirirəm".

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

**1998-ci ildə Rusiya Hərbi Qüvvələrinin Baş qərargahının arxiv materialları əsasında II Dünya müharibəsi zamanı SSRİ-nin itkiləri hesablanıb. 4 illik müharibədə sovet ordunun 10 milyon 700 min əsgəri həlak olub. Azərbaycan xalqı II Dünya müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət göstərib. 1941-1945-ci illərdə Azərbaycandan sovet ordusu sıralarına 640 min nəfər səfərbər edilərək cəbhəyə göndərilib. Onların 300 mindən çoxu geri qayıtmayıb.**

# II Dünya müharibəsində itkin düşmüş babalarımızı tapa bilərik - yeni xəbər var

## Rusiya Müdafiə Nazirliyi cəbhədə həlak olmuş və itkin düşmüş sovet hərbçilərinin məlumat bankını yaradıb; informasiya bazası vaxtaşırı yenilənir

Onlardan biri də Rəfiq Ali-Akbər oğlu Əkbərov olub. Onun haqqında yaxın qohumu Günel Əkbərova qəzetimizə məlumat verir. Deyir, Rəfiq Əkbərov orduya qatılanda cəmi 19 yaşı olub: "Stalinqrad cəbhəsində əsir düşüb. Yaralı olduğu üçün onu eşelonla gətiriblər Polşaya. Orada da alman və polyak qarışıqlı tibb bacısı ilə tanış olub. Rus dilini yaxşı bildiyi üçün qızla birtəhər dil tapıb, danışıb. Qızın anası polyak olduğu üçün o da rus dilini az-çox bilirmiş. Zamanla aralarındakı münasibət sevgiyə dönüb və evləniblər. Sara adından xoşu gəlirmiş deyə Rəfiq baba həyat yoldaşı - alman qızını Sara deyə səsləyirmiş. Bizimkilər onu öldü bilirlərmiş. Ta ki..."

Ta ki, 40 il sonra Rəfiq Əkbərovdan onlara məktub gələnə qədər. Məktub 1993-cü ildə gəlib. Sovetlər dağılandan sonra. Sovet rejimindən ehtiyat edən Rəfiq Əkbərov məktub yazmağa da ehtiyat edib. Azərbaycan ikinci dəfə müstəqillik əldə edəndən sonra ürəklə ailəsinə məktub yazıb.

İllər sonra Rəfiq Əkbərov kimi II Dünya müharibəsində itkin düşmüş bir neçə azərbaycanlı da üzə çıxdı. Lakin itkin düşmüş çoxluq haqda 70 ildən çoxdur ki, məlumat yoxdur.

Zaman-zaman müharibə getmiş ölkələrdə həlak olmuş azərbaycanlı oğullardan bəzilərinin qəbirləri də tapılıb. II Dünya müharibəsində Moldova Respublikası ərazində həlak olmuş və itkin düşmüş sayılan 206 nəfər azərbaycanlı döyüşçünün dəfn olunduğu yer aşkarlanıb. Bundan başqa, Slovakiya ərazisində həlak olmuş, aldığı yaralardan dünyasını dəyişmiş və burada dəfn edilmiş 63 min 382 sovet hərbçisi arasında 281 azərbaycanlının olduğu müəyyənləşib.



Lakin bu say çox azdır. Əsas çoxluq hələ də müəmmaya qarışıb. Artıq sərhədlər açılıb. Sovet rejimi çoxdandır tarixin arxivinə gömülüb. Müharibədə itkin düşmüş soydaşlarımızı axtarmaq üçün əl-qolumuz açılıb. Bu işə hazırda dayanmadan inkişafda olan texnologiya da böyük imkanlar yaradır. Bir də ki 73 il tarix üçün çox da böyük rəqəm deyil...

Almaniya bu gün də 200 il əvvəl Azərbaycana köçmüş alman ailələri ilə maraqlanır, araşdırma aparırlar. Bizim isə II Dünya müharibəsində itkin düşmüş minlərlə soydaşımız haqda məlumatımız yoxdur. Axı günü bu gün də gözü yolda olan, atasının, qardaşının, həyat yoldaşının yolunu gözləyənlər var...

Rusiya Federasiyası Müdafiə Nazirliyi 2012-ci ildə II Dünya müharibəsində həlak olmuş və itkin düşmüş şəxslər barəsində arxiv məlumatlardan ibarət İnformasiya Məlumat Bankı - Elektron Arxiv yaradıb. www.obd-memorial.ru ünvanında olan bu bank SSRİ Müdafiə Nazirliyinin Mərkəzi Arxivinin rəsmi sənədləri və məlumatları əsasında hazırlanıb.

Layihənin əsas məqsədi milyonlarla keçmiş sovet vətəndaşına müharibə zamanı həlak olmuş qohumlarının taleyindən xəbər almaq imkanı yaratmaqdır. Bunun üçün Rusiya Silahlı Qüvvələrinin Hərbi-Memorial Mərkəzi tərəfindən unikal informasiya axtarış sistemi yaradılıb.

Bankda yerləşdirilən məlumatların əsas hissəsini hərbi hissələrdən itkilərlə bağlı daxil olmuş hərbi sənədlər, itkiləri dəqiqləşdirən (dəfnlər, hospitallar və tibb batalyonları tərəfindən tərtib edilmiş sənədlər, sovet əsirlərinin qənimət götürülmüş kartoçkaları) arxiv sənədləri və sovet zabit və əsgərlərinin mühafizə edilmiş pasportları təşkil edir.

Saytdan həlak olan əsgərlərin rütbəsi, qulluq etdiyi hərbi hissə, ölümünün səbəbi (öldürülüb, aldığı yaradan ölüb, itkin düşüb) və dəfn edildiyi yer barədə informasiyalar əldə etmək olur. Bundan başqa, saytda şəxslər barədə birinci mənbədən əldə edilmiş bütün ilkin sənədlər yerləşdirilib. Bu sənədlər həlak olanları böyük dəqiqliklə müəyyən etməyə imkan verir.

Layihə çərçivəsində sayta 13 milyon arxiv səhifəsi və 30 min hərbi dəfnlə bağlı pasport məlumatları yüklənib. Oxucu ilk dəfə olaraq axtardığı qohumları və babaları barədə real sənədlərlə tanış olmaq imkanı qazanacaq. Bank daim yenilənir.

**Saytdakı məlumatları araşdırarkən xeyli sayda Azərbaycan vətəndaşının adına rast gəlmək olur. Maraqlıdır, bizdə də belə elektron baza varmı?**

**"Yeni Müsavat"a danışan Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov bildirib ki, II Dünya müharibəsində itkin düşmüş və həlak olmuş azərbaycanlılar haqda kitab hazırlanır:** "Kitabın 16 cildi artıq çapdan çıxıb. Digər cildləri də yavaş-yavaş hazırlanır. Ümumilikdə 20 cild olacaq. Kitabda müharibədə iştirak etmiş Azərbaycanın qəhrəman övladları barədə geniş məlumat olacaq. Demək olar, bazanın elektron versiyasını da hazırlamışıq. Yaxın günlərdə təqdimatı olacaq. Bununla paralel olaraq, bizim veteranlar təşkilatı MDB dövlətləri ilə, hansı ki, müharibə olan ərazilərin nümayəndələri, hərbi qurumları, veteran təşkilatları ilə danışıqlar və axtarışlar aparırıq. Məsələn, Kişinyovda 206 nəfər azərbaycanlının həlak olması barədə bu yaxınlarda məlumat əldə etdik. Kişinyovda onlara abidə ucaltdıq, onların soyadlarını mərmər daşın üzərinə yazdırdıq. MDB dövlətləri ilə, hansı ki, müharibə olan ərazilərin nümayəndələri, hərbi qurumları, veteran təşkilatları ilə danışıqlar və axtarışlar aparırıq. Məsələn, Kişinyovda 206 nəfər azərbaycanlının həlak olması barədə bu yaxınlarda məlumat əldə etdik. Kişinyovda onlara abidə ucaltdıq, onların soyadlarını mərmər daşın üzərinə yazdırdıq. 24 nəfər azərbaycanlının Kaluqada həlak olması barədə məlumat aldıq. Svestopol və Kerçdə də həlak olan azərbaycanlılar barədə bizdə məlumat var. Orada yaşayan azərbaycanlılar, səfirliklər və diaspora nümayəndələri ilə əlaqə saxlayırıq, İkinci Dünya müharibəsi zamanı həlak olmuş Azərbaycan oğullarının adlarının yazılması, mərmər lövhələrin qoyulmasını təklif və icraatına kömək edirik. O xarici ölkələrdə yaşayan azərbaycanlılar var ki, hər il 9 May - Qələbə Günündə abidəyə gül qoyurlar və sabah fəxrlə deyirlər ki, bu şəhərlərin azad olmasında Azərbaycan oğulları həlak olublar".

❑ **Ləman MUSTAFAQIZI,**
**"Yeni Müsavat"**

## "Nar" korporativ müştərilər üçün yeni imkanlar açır

nar
Gəlin birlikdə böyüyək

**Hər zaman keyfiyyətli xidməti və sərfəli şərtləri ilə seçilən mobil operator Nar korporativ müştəriləri üçün yeni təkliflərini təqdim edir. Müştərilər sərfəli şərtlərlə, smartfon, 4G data modem və portativ internet daşıyıcısı əldə edə bilər.**

**Korporativ tariflərdən birini seçməklə, müştərilər sərfəli qiymətə yeni model smartfon əldə edə biləcək. Smartfonu əldə etmək üçün 1 Nar nömrəsinin korporativ tarifdə olması kifayətdir. Təqdim olunana smartfona 1 il müddətində zəmanət verilir.**

**Daim genişlənən 4G şəbəkəsi ilə "Nar" müştərilərinə hər zaman və hər yerdə yüksək keyfiyyətli internetdən istifadə etmək imkanı açır. İnternetdən daimi istifadə edən iş adamları "Nar"-ın pulsuz 4G data modem və data nömrələrini əldə edə və 1 il müddətində, xüsusi endirimlə, aylıq 20 GB mobil internetdən yararlana bilər.**

**"Nar"-ın portativ internet daşıyıcısı isə daimi ofisdən istifadə etməyən şirkətlər üçün cəlbedici təklifdir. Belə ki, "WTTx" cihazı ("Wireless To The x", tərc.: X nöqtəsilə naqilsiz əlaqə) vasitəsilə eyni anda 32 cihaz "Nar" şəbəkəsinə qoşularaq internetdən istifadə edə bilər.**

**Qeyd olunan təkliflər həm yeni qoşulan, həm də mövcud korporativ müştərilər üçün nəzərdə tutulub. Təklifə qoşulmaq və həmçinin, əlavə məlumat almaq üçün "Nar" nömrələrindən 789 qısa nömrəsinə zəng edə və ya business-nar@azerfon.az ailto:business-nar@azerfon.az elektron poçtuna yaza bilərsiniz.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayıb. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim esib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Hazırda "Nar" şəbəkəsi ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. "P3 Communications" tərəfindən 2017-ci ildə keçirilmiş şəbəkə sınaqları nəticəsində Nar şəbəkəsi "ən yaxşı mobil zəng xidməti" göstərən şəbəkə olaraq tanınıb.**




# Yaxşı ki, "Qarabağ" "Fənərbaxça" ilə bir qrupa düşmədi

## Püşkatmanın nəticəsinə görə bəxtimizdən gileylənməyək



**Bir az rahat nəfəs almaq olar... "Qarabağ"ı deyinə-deyinə, tənqid edə-edə və həm də "sən bunu bacararsan" öygüsüylə Avropa Liqasının qrup mərhələsinə göndərə bildik.**

Sonadək bəlkə də buna tam inanmırdıq da, baxmayaraq ki, pley-offda rəqib "Qarabağ"dan heç də güclü deyildi. Amma heyətlə bağlı problem olduğundan ən pis varianta da psixoloji olaraq hazırlaşmışdıq.

Həmin qələbə gecəsi isti-isti emosiyalarla yazdığım "Nə yaxşı varsan, "Qarabağ"" yazısından bəzi sitatları qəzet oxucuları və tarix üçün dərc etmək istədim. **Sitat:** ""Qarabağ" bu gecə oynadı! Oyandı! Hətta dirildi! Hamını bir daha "Qarabağ"ın hələ meydandan çəkilməyəcəyinə inandırdı..."

Həmin axşam, görünür, həm də qələbənin yaratdığı emosiyadan klubun oyunçularından birinin azarkeşlərdən narazılığına cavab da vermişdim, amma ad çəkmədən, yenə də adını xatırlatmıram. Çünki bu cür münasibət yanlış hesab edirəm. **Sitat:** "Stadiona az azarkeş gəlməsindən narazılıq edənləri anlamaq çətindir. Bu xalqı qələbəyə tamarzı qoymaq olmaz, bu xalqı qələbədən məhrum etmək olmaz! Niyə azarkeş yox, xalq deyirəm? "Qarabağ" yalnız azarkeşlərin klubu deyil! "Qarabağ"a heç həyatında futbola baxmayan evdar xanım da, nəinki stadionda, heç televizorda oyuna baxmağa zamanı olmayan dülgər də, bənna da, hətta nazir də biganə deyil. Amma Qarabağ adı varsa, hamı qələbə gözləyir. Bunu anlamaq lazımdır, hərdən çox çətin olsa da, olduğu kimi anlamaq! Anlamayan varsa, gedib başqa klubda oynasın... "Qarabağ" bizim meydandakı vətənimizdi, onun zəif oyunu canımızı ağrıdır, uğuru isə gözümüzü yaşardır. "Qarabağ", sadəcə, klub deyil, "Qarabağ" bizim gələcəyə olan ümidimizdir, Qarabağı görməyən gənclərin oraya gedən döyüş yoludur, "Qarabağı unutma!" devizidir, düşmənlərimizə verilən göz dağıdır!"

***

"Qarabağ"ın Avroliqanın qrup mərhələsinə düşməsi bu kluba çox lazım idi, azarkeşə də, azarkeş olmayana da, AFFA-ya da, Azərbaycana da... Mən bu sətirləri yazarkən Monakodakı püşkatma hələ başlamamışdı, amma rəqiblərin kimlər olması artıq o qədər də önəmli deyil. Əsas odur ki, qrupdan kənarda qalmadıq, bundan sonrası Qurban Qurbanovun və klubun öhdəsindədir. Biz bir çox miqyaslı çempionatları milli komanda olaraq illərdir kənardan izləyirik. Gələn il isə Avropa Liqasının finalı Bakı Olimpiya Stadionunda keçiriləcək. Necə ola bilərdi ki, bu il həmin turnirə kənardan baxaydıq? Gücümüz yetsə, 1/16-ya keçməyi bacarmalıyıq, ondan sonrasına... ondan sonra baxarıq... Sevindiricidir ki, qrup mərhələsinə vəsiqə qazanan kimi "Qarabağ" millimizin yarımmüdafiəçisi Araz Abdullayevi heyətinə cəlb edib, onunla 3 illik müqavilə imzalanıb.

### "Bakı-2019"-Avropa Liqasının loqosu təqdim olundu

Avqustun 31-də Monakoda UEFA Avropa Liqasının qrup mərhələsinin püşkatma mərasimi keçirilib. Püşkatmadan öncə isə "Bakı-2019" UEFA Avropa Liqasının loqosunun təqdimatı olub.

Loqoda UEFA Avropa Liqasının kuboku Bakının arxitektura nümunələrinin fonunda təsvir olunub. Loqonun dizaynında Azərbaycan Dövlət Akademik Filarmoniyası, Alov Qüllələri, Qız Qalası, Heydər Əliyev Mərkəzi və Hökumət Evi kimi məşhur tikililərin təsvirindən istifadə olunub. Xeyirli olsun...

### "Qarabağ"ın qrupdakı rəqibləri məlum oldu

Əvvəlcə 48 komanda 4 səbətə bölünüb. Püşkatmanın nəticəsinə görə "Qarabağ" E qrupunda mübarizə aparacaq.

*"Arsenal" (İngiltərə)*
*"Sportinq" (Portuqaliya)*
*"Qarabağ" (Azərbaycan)*
*"Vorskla" (Ukrayna)*




"Qarabağ"ın Türkiyə klubları ilə bir qrupa düşməməsinə sevindim. Biz beləyik axı, görəcəkdin ki, "Fənərbaxça" ilə oyunda Azərbaycandakı "fənərlilər"lə "Qarabağ"ın azarkeşləri tutaşdı. Arzuolunmaz mənzərələr üzə çıxacaqdı, əsəblərimiz korlanacaqdı. Yaxşı ki, hər şey belə yekunlaşdı. Daha doğrusu, yaxşı başladı.

"Arsenal" İngiltərənin ən nüfuzlu klublarından biridir və onlarla qarşılaşma "Qarabağ" üçün yaxşı təcrübə olacaq. "Sportinq" əvvəlki şöhrətini itiribmiş kimi görünür və onlarla oynamaq və hətta 4 xal qazanmaq mümkündür. Ukraynanın "Vorskla" klubu haqda məlumatları sonralar əldə edəcəyik. Məncə, bəxtimizdən gileylənməyək. Bu qrupdan çıxmaq "Arsenal"ın adına görə indi bir az qeyr-real görünə bilər. Amma hələ indidən də pessimizmə qapanmağa gərək yox. Hələ bir oynasınlar görək bu "Arsenal"ın topu-tüfəngi bizi "vura" biləcəkmi?

Digər qruplar belə formalaşıb:

***A qrupu***
*"Bayer" (Almaniya)*
*"Lüdoqorets" (Bolqarıstan)*
*"Sürix" (İsveçrə)*
*AEK (Larnaka, Kipr)*

***B qrupu***
*"Zaltsburq" (Avstriya)*
*"Seltik" (Şotlandiya)*
*"Leyptsiq" (Almaniya)*
*"Rusenborq" (Norveç)*

***C qrupu***
*"Zenit" (Rusiya)*
*"Kopenhagen" (Danimarka)*
*"Bordo" (Fransa)*
*"Slaviya" (Praqa, Çexiya)*

***D qrupu***
*"Anderlext" (Belçika)*
*"Fənərbağça" (Türkiyə)*
*"Dinamo" (Zaqreb, Xorvatiya)*
*"Spartak" (Trnava, Slovakiya)*

***F qrupu***
*"Olimpiakos" (Yunanıstan)*
*"Milan" (İtaliya)*
*"Betis" (İspaniya)*
*"Düdelanj" (Lüksemburq)*

***G qrupu***
*"Vilyarreal" (İspaniya)*
*"Rapid" (Vyana, Avstriya)*
*"Spartak" (Moskva, Rusiya)*
*"Reyncers" (Şotlandiya)*

***H qrupu***
*"Latsio" (İtaliya)*
*"Marsel" (Fransa)*
*"Ayntraxt" (Frankfurt, Almaniya)*
*"Apollon" (Kipr)*

***I qrupu***
*"Beşiktaş" (Türkiyə)*
*"Genk" (Belçika)*
*"Malmö" (İsveç)*
*"Sarpsborq" (Norveç)*

***J qrupu***
*"Sevilya" (İspaniya)*
*"Krasnodar" (Rusiya)*
*"Standard" (Lyej, Belçika)*
*"Akhisar Belediyespor" (Türkiyə)*

***K qrupu***
*"Dinamo" (Kiyev, Ukrayna)*
*"Astana" (Qazaxıstan)*
*"Renn" (Fransa)*
*"Yablonets" (Çexiya)*

***L qrupu***
*"Çelsi" (İngiltərə)*
*PAOK (Yunanıstan)*
*BATE (Borisov, Belarus)*
*"Videoton" (Macarıstan)*
*Uğurlar, "Qarabağ"...*

**❑ Nazim Sabiroğlu, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 184 (7073) 1 sentyabr 2018

# Dünyanın ən şanslı iti



Boliviyalı it dünyanın ən bəxti gətirən iti elan edilib. Bu barədə lenta.ru saytı xəbər verir. İtin şanslı olmasının səbəbi isə maşın yarışları zamanı baş verənlər olub. Belə ki, yarışı izləyən it maşınlardan birinin dalınca qaçmağa başlayıb. Həmin an arxadan son sürətlə gələn maşının olmasından xəbərsiz olub. Arxadan gələn maşın isə şans əsəri ona yaxınlaşanda yerdən yarım metr yüksəyə qalxıb və bununla da it ölməkdən qurtulub. İt yarış zolağına anidən çıxdığı üçün heç kim onu oradan kənarlaşdıra bilməyib. İzləyicilər isə sürücüyə kənara çəkilməsi üçün xəbərdarlıq etsələr də, o, səs-küydə eşitməyib. Bununla belə, ani və planlaşdırılmamış halda maşının yuxarı qaldırmaqla iti ölümdən xilas edib və bununla da heyvan "dünyanın ən şanslı iti" ünvanına layiq görülüb.



## Gimnastika xərçəng xəstələrinin dərmanıdır

Xərçəng xəstələrinin gimnastika ilə məşğul olması məsləhət görülür. Araşdırma nəticələrinə görə, bu, xərçəngin daha çox yayılmasının qarşısını alır. Amma bu nəticəyə baxmayaraq, araşdırmaya qatılan bir çox xəstənin bədən formasını qorumaq üçün gimnastika ilə məşğul olmağa həvəssiz olduğu görünüb. Minnesotada yerləşən Mayo Klinikada aparılan araşdırmada xərçəng xəstələrinin gimnastika vərdişləri araşdırılıb. Araşdırmaya rəhbərlik edən Doktor Andrea Cheville deyib ki, həkim olaraq xəstələrə bu gimnastikanın faydalarını başa salsaq da, onların bu barədə biliklərinin nə dərəcədə olmasından xəbərsizik. Dr. Chevillenin bildirdiyinə görə, bir çox xəstənin passiv həyat tərzi xərçəng simptomlarının daha yavaş ortaya çıxmasına səbəb olur və bu, diaqnozu gecikdirir.

# Ən məşhur ayrılıq bəhanəsi

İsveçrədə aparılan bir araşdırma cütlüklərin ayrılma bəhanələrini sistemləşdirib. Məlum olub ki, ən məşhur ayrılma bəhanəsi "Bir müddət münasibətlərimizə fasilə verək"dir. İkinci sırada "İşlərim çoxdur, sənə vaxt ayıra bilmirəm" gəlir. "Eyni dalğalarda deyilik", "Anam səni bəyənmir", "Məni boğursan", "Dərilərimiz belə uyuşmur", "Artıq məni həyəcanlandırmırsan", "Mən sənə istədiklərini verə bilmərəm", "Sən əvvəlki sən deyilsən", "Sənə öyrəşmək istəmirəm", "Bu münasibətin sonunu görə bilmirəm", "Biz ayrı-ayrı dünyaların insanlarıyıq", "Səni sevirəm, amma sənə aşiq ola bilmirəm" tipli bəhanələr də ayrılmaq istəyən tərəfin istifadə etdiyi bəhanələr sırasındadır. Araşdırmaya görə, ümumən bu tipli bəhanələrdən daha çox kişilər istifadə edir. Ayrılmaq istəyən qadının həyatında başqa biri varsa, mütləq bunu etiraf edəcək gücə sahib olur.



## Öldürmək istədiyi əri onu ölümdən xilas etdi

Yaponiyada yaşayan bir qadının həyatını öldürmək istədiyi əri xilas edib. Məlumatlara görə, ər-arvad arasında uzun müddət davam edən mübahisə yaranıb. Söz-söhbətdən bezən kişi öz iş otağına gedib və orada yatıb. Əsəbləri sakitləşməyən qadın kağızlar yandıraraq ərinin yatdığı otağa atıb. Sonra isə öz otağına yatıb. Yuxudan oyanan kişi evin yandığını görüb. O, bayıra çıxdıqdan sonra arvadının evdə qaldığını başa düşüb. Yenidən evə qayıdan kişi arvadını yanan evdən çıxara bilib. Xəstəxanaya aparılan cütlük həkimlər tərəfindən müayinə edilib. Qadın, sadəcə, dumandan zəhərləndiyi üçün xəstəxanadan tez çıxarılıb. Kişi isə ağır yanıq xəsarətləri aldığı üçün hələ də xəstəxanadadır. Suçunu etiraf edən qadın həbs edilib. Lakin o, ərini öldürmək istəmədiyini, yalnız qorxutmaq üçün belə addım atdığını deyib.




**QOÇ** - Sağlamlığınızla bağlı bir neçə problemlə rastlaşma ehtimalınız var. Atmosferin bu çirkli çağında səhhətinizi xüsusilə toz-torpaqdan qorumalısınız. Digər işlərinizi təxirə də sala bilərsiniz.

**BUĞA** - İşgüzar əlaqələri dərinləşdirmək üçün birə-beş qat əzmkarlıq göstərməlisiniz. Qarşılıqlı anlaşma sizin üçün vacib şərtdir. Şəxsi həyatınızda mühüm rol oynayan adamlarla ünsiyyəti qoruyun.

**ƏKİZLƏR** - Maddi problemləriniz qabardığından bütün sahələrdə daxili süstlük sizi tərk etmir. Lakin usanmağa dəyməz. Ən azı ona görə ki, saat 14-dən sonra bu yönümdə uğurlu məqamlar yaşayacaqsınız.

**XƏRÇƏNG** - Xoş ovqat qazanmaq üçün bu təqvimdən maksimum istifadə etməlisiniz. Bu istiqamətdə Göy qübbəsi də sizə yardımçı olacaq. Sevindirici xəbərlər, maraqlı məclislər yolunuzu gözləyir.

**ŞİR** - Yeri gəldi-gəlmədi, özünüzü tərif etməkdən vaz keçin. Bu, nüfuzunuza ciddi xələl gətirə bilər. Çalışın ki, ünsiyyətdə olduqlarınıza mərhəmət göstərəsiniz. Səhhətinizə fikir verin.

**QIZ** - Öz bürcünüzün enerjili vaxtı olduğundan bu gözəl ayın ən düşərli bir gününü yaşayacaqsınız. Ələlxüsus da saat 12-17 arası maraqlı sövdələşmələrin iştirakçısına çevrilə bilərsiniz.

**TƏRƏZİ** - Təxminən saat 13-ə qədər ümumi əhvalınızda xoşagəlməzliklər baş qaldıra bilər. Sonrakı müddətdə isə nəzərdə tutduğunuz planları reallaşdırmaqda çətinlik çəkməyəcəksiniz.

**ƏQRƏB** - Hər mənada düşərli gündür. İstər qarşılıqlı münasibətlərdə, istərsə də şəxsi büdcənizin dirçəlməsində uğura yiyələnəcəksiniz. Axşam isə doğmalarınıza baş çəkməyiniz yaxşı olar.

**OXATAN** - Həmkarlarınızla, qonşu və qohumlarınızla aranızda soyuqluq gözlənilir. Bu kimi xoşagəlməzlikləri dəf etmək üçün təmkin nümayiş etdirməlisiniz. Nahardan sonra müqəddəs yerlərə baş çəkin.

**OĞLAQ** - Bu təqvimdən başlayaraq ürəkaçan dövranınız start götürəcək. Daha heç bir gərginliklə qarşılaşmayacaqsınız. Ulduzlar nahardan sonra büdcənizdə artım olacağını da bildirir.

**SUTÖKƏN** - Sevinc dolu hadisələr yolunuzu gözləyir. Ola bilsin ki, büdcənizdə ciddi artım da olsun. Amma yersiz qərarlar çıxarmaq fikrindən uzaq olun. Həmkarlarınızla dil tapmağa çalışın.

**BALIQLAR** - Saat 16-ya qədər əsəblərinizi qoruya bilsəniz, sonrakı müddəti rahat şəraitdə başa vuracaqsınız. Ümumiyyətlə, yaxşı olar ki, bu gün qeyri-ənənəvi, riskli işlərdən uzaq olasınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İnsan yuxuda biliyi belə öyrənir



Son araşdırmalara görə, insan yatanda aldığı çəki və eyni anda eşitdiyi səs bir-birinə uyğundur. Oyandıqdan sonra səs eşitdiyində isə ağlına qoxu gəlir. Bundan öncə insanın hər sabah "ölümdən oyandığına" inanılırdı. Amma indi beyin yatanda da aktivdir və hətta yatanda da öyrənir deyə bilərik. Ən son elmi araşdırmalara görə, insan gün içində öyrəndiklərini yuxu zamanı beynində möhkəmləndirir. Veizmann İnstitutunda həyata keçirilən araşdırmanın nəticələrinə görə, beynin məlumatı dəyərləndirmə forması inanılmazdır. İnsan yatanda beyni işləməyə davam edir. Yuxu zamanı insan beyni keçmişdəki məlumatları daha da möhkəmləndirir. Ancaq beynin yeni məlumatları nə qədər yaxşı qavraması mövzusunda dəqiq nəticə alınmayıb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100